Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 143 (8166) CÜMƏ, 5 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Prezidentin sosial islahatlar paketi vətəndaş rifahı naminə atılan inqilabi addımdır

Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin ilk növbədə əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır. Bu baxımdan dövlət başçısının yeni sosial paketi kimi təqdim olunan 18 iyun 2019-cu il tarixli sərəncamları, minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü vətəndaş rifahı naminə atılan mühüm yeni addımlardır.

Dəfələrlə Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu qeyd edən Prezident İlham Əliyev demişdir: "Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir". Bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial siyasətə malik olan bir ölkəyə çevrilib. Aparılan siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı, vətəndaş rifahının təminatı prinsipi dayanır və bu prinsip iqtisadi dividendlərin ilk növbədə əhalinin rifahına yönəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl addımların atılması ilə təsdiqini tapır.

> **2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır.**
>
> **İlham ƏLİYEV**

2003-cü ildən ötən dövrdə əməkhaqlarının 7,5 dəfə, pensiyaların 10 dəfədən çox, həssas qruplara yönələn müavinət və təqaüdlərin dəfələrlə artırılması, yoxsulluğun 5 faizə enməsi də bunu göstərir. Yeni iş yerlərinin açılması, məşğulluq imkanlarının getdikcə artırılması ölkədə işsizliyin kəskin şəkildə azalaraq 5 faizə enməsi ilə nəticələnib. Eyni zamanda Azərbaycanda əmək və məşğulluq sahəsində həyata keçirilən islahatlar nəticəsində əmək qanunvericiliyi beynəlxalq əmək normalarına uyğunlaşdırılıb, əmək bazarının təkmilləşdirilməsi, əmək münasibətlərinin sosial dialoq, kollektiv müqavilələr və sazişlərlə tənzimlənməsi istiqamətində uğurlu nəticələr əldə olunub.

2019-cu ilin sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacağını bəyan edən Prezidentin cari il ərzində təqdim etdiyi iki sosial paket bu siyasətin yüksək səviyyədə reallaşmasını, ölkədə sosial inkişaf, sosial rifahın yüksəldilməsi istiqamətində bir-birinin ardınca inqilabi xarakterli addımların atılmasını təmin edib. Dövlət başçısının bu ilin ilk aylarında təqdim etdiyi birinci sosial islahatlar paketi nəticəsində minimum əməkhaqqı martın 1-dən 40 faizədək artırılaraq 130 manatdan 180, pensiyanın minimum məbləği isə 40 faizədək artırılaraq 116 manatdan 160 manata çatdırılıb. Bu gün həmin artımlardan 830 min insan yararlanır. Həmçinin aprelin 1-dən 14 kateqoriyaya aid şəxslər üzrə sosial müavinətlər, 9 kateqoriyaya aid şəxslər üzrə isə Prezidentin aylıq təqaüdlərinin məbləği orta hesabla 100 faiz artırılıb. Sosial təminat sisteminin əhatə dairəsi daha da genişləndirilib, 2 yeni təqaüd növü - sağlamlıq imkanları məhdud uşaqlara və I dərəcə əlilliyi olan şəxslərə qulluq edənlərə Prezidentin aylıq təqaüdü təsis olunub. Habelə aylıq sosial müavinət alan I dərəcə əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü pensiya alan I dərəcə əlilliyi olan şəxslərə də şamil edilib. Sayı 80 minədək olan müharibə veteranlarına aylıq təqaüdlər təsis olunub. Sosial müavinət və təqaüd artımları, təsis olunan yeni təqaüdlər 300 mini əlilliyi olan şəxslərdən ibarət 600 minədək vətəndaşın rifahını yaxşılaşdırıb. Bunlardan əlavə, məcburi köçkünlərin aylıq müavinəti 50 faiz artırılıb, 800 min vətəndaşın problemli kreditləri həll olunub, tələbələrin təqaüdlərində əhəmiyyətli artımlar edilib.

Ümumilikdə cari ilin ilk rübündə reallaşdırılan və artımların təmin edilməsi üçün əlavə olaraq dövlətin illik 1,9 milyard manat maliyyə yükünü üzərinə götürdüyü birinci sosial paket 3 milyona yaxın insanın rifahına mühüm dəstək kimi cəmiyyət tərəfindən yüksək dəyərləndirilir.

*Ardı 2-ci səh.*

## Minsk şəhərində keçirilən II Avropa Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Minsk şəhərində keçirilən II Avropa Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançılarını və onların məşqçilərini mükafatlandırmaq məqsədi ilə **qərara alıram:**

1. Minsk şəhərində keçirilən II Avropa Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1. birinci yeri tutan hər bir idmançıya 50 min manat, onun şəxsi məşqçisinə 25 min manat;

1.2. ikinci yeri tutan hər bir idmançıya 30 min manat, onun şəxsi məşqçisinə 15 min manat;

1.3. üçüncü yeri tutan hər bir idmançıya 20 min manat, onun şəxsi məşqçisinə 10 min manat;

1.4. milli yığma komandaların baş məşqçilərinə ən yüksək nəticə göstərmiş bir idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə);

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyul 2019-cu il*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya"nın yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq əhalinin məşğulluğu və sosial müdafiəsi sahələrində səmərəli idarəetmə qərarlarının qəbul edilməsi üçün monitorinq və proqnozlaşdırma sisteminin yaradılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. əmək bazarı və sosial müdafiə sahələrində mövcud vəziyyətin qiymətləndirilməsini, inkişaf meyillərinin öyrənilməsini və monitorinqləri həyata keçirən, bu sahələrdə səmərəli idarəetmə qərarlarının qəbul edilməsi məqsədilə təhlil və proqnozlar hazırlayan, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu "Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya"nı (bundan sonra - Observatoriya) iki ay müddətində yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

2. Observatoriyanın təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

2.1.1. Observatoriyanın nizamnaməsinin və nizamnamə fondunun miqdarının Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmaqla təsdiq edilməsi;

2.1.2. strukturunun təsdiqi və işçilərinin say həddinin müəyyən edilməsi;

2.1.3. icra orqanlarının yaradılması, onların səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

2.2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə:

2.2.1. bu Fərmanın 2.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 iyul 2019-cu il*

## Azərbaycan "OPEC plus"un qərarlarını dəstəkləyir

### Neft hasilatının azaldılmasına dair sazişin müddəti 9 ay uzadıldı

İyul ayının əvvəlində Avstriyanın paytaxtı Vyana şəhərində OPEC Nazirlər Şurasının 176-cı iclası keçirilib. Eləcə də "OPEC plus" Nazirlərinin Birgə Monitorinq Komitəsinin 15-ci iclası, həmçinin OPEC-ə üzv və qeyri-üzv dövlətlərin nazirlərinin 6-cı görüşü olub. OPEC və bəzi qeyri-OPEC ölkələri ilə əldə olunan, neft hasilatının azaldılmasını nəzərdə tutan sazişin müddətinin 9 ay uzadılması barədə qərar qəbul edilib. Qərar gələn il martın 31-dək qüvvədə olacaq.

Vyana görüşlərində qlobal neft bazarının təhlili əsasında bu ilin ikinci yarısı üçün hasilat səviyyəsinə dair qərarın qəbulu məsələsinə baxılacağı əvvəlcədən nəzərdə tutulmuşdu. "Əməkdaşlıq Bəyannaməsi"nin icra müddətinin 6 və ya 9 ay uzadılması məsələsinə baxmaq planlaşdırılmışdı.

Tədbir ərəfəsində Səudiyyə Ərəbistanının Energetika, Sənaye və Təbii Sərvətlər naziri Xalid Əbdüləziz Əl Falih və Rusiyanın Energetika naziri Aleksandr Novak neft istehsalının azaldılmasını nəzərdə tutan sazişin müddətinin 9 ay uzadılmasını dəstəklədiklərini bildirmişlər.

*Ardı 5-ci səh.*

OPEC

## Bu il sahələrdə bol taxıl var



İndi taxılçılıqda işlərin qızğın çağıdır. Bir aya yaxındır ki, biçinə başlanmışdır. Səhər tezdən zəmilərə çıxan kombaynlar gün batanadək işləyir, biçilən taxıl sahələrdən anbarlara daşınır.

Tovuz taxılçıları bu il bol məhsul yetişdirmişlər. Biçinin optimal müddətdə başa çatdırılması üçün bütün qüvvələr səfərbərliyə alınmışdır. Rayon icra hakimiyyətindən verilən məlumata görə, taxıl biçini xüsusi nəzarət altındadır. Biçinin mütəşəkkil aparılması üçün yığım kampaniyası başlamamışdan əvvəl qərargah yaradılmış, yanğın təhlükəsizliyi qaydalarına əməl edilməsi məqsədilə ümumrayon toplantısı keçirilmişdir. Bundan başqa, biçin kampaniyası dövründə yarana biləcək hər hansı problemin qarşısının alınması üçün qaynar telefon xətti açılmışdır.

*Ardı 5-ci səh.*

## Bakıda ilk Respublika Sənətkarlıq Festivalı təşkil olunub

İyulun 3-dən ölkəmizdə ilk dəfə Respublika Sənətkarlıq Festivalı keçirilib. AZƏRTAC xəbər verir ki, festival UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində təşkil olunub.

Festivalda respublikamızın paytaxtı və regionlarından olan sənətkarların iştirakının təmin olunması məqsədilə sənətkarlığın müxtəlif istiqamətləri ilə peşəkar səviyyədə məşğul olan ustalar dəvət edilib. İnsanların festivala daha rahat gəlmələri üçün Nizami küçəsində açıq səma altında, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının qarşısındakı meydanda təşkil edilib. Tədbir festival-yarmarka və karnaval formasında keçirilir. Festivalın keçirilməsi üçün 40 müxtəlif formalı, müasir tərtibatlı və hər birində 2-3 sənətkarın öz işlərini sərgiləyəcəyi stendlər quraşdırılıb.

*Ardı 5-ci səh.*



## Cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra pozulub

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.



# Prezidentin sosial islahatlar paketi vətəndaş rifahı naminə atılan inqilabi addımdır

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin ikinci sosial paketini əhatə edən 18 iyun 2019-cu il tarixli sərəncamları, minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü isə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində inqilabi addımların ardıcıl xarakter aldığını göstərir. Bu sərəncamlarla ölkədə minimum əməkhaqqının, həmçinin müxtəlif sahələrdə çalışanların maaşlarının artırılması təmin olunub. Məlum olduğu kimi, əmək qanunvericiliyinə əsasən, əməkhaqqı - müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilmiş, işçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusudur. İşçilərin əməkhaqqı məbləğinin hər hansı şəkildə azaldılması və onlara dövlətin müəyyən etdiyi minimum əməkhaqqı miqdarından az əməkhaqqı verilməsi qanunla qadağandır.

"Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği cari il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq. Bununla da cari ildə reallaşan iki sosial paket nəticəsində Azərbaycanda minimum əməkhaqqının məbləği 93 faiz artırılmış olur. Bununla ölkəmizdə ilk dəfə olaraq minimum əməkhaqqının məbləği yaşayış minimumunu (180 manat) üstələyəcək. Yəni minimum səviyyədə olan əməkhaqqı belə yaşayış minimumundan 70 manat və ya 40 faiz çox olacaq. Bu, Azərbaycan dövlətinin sosial siyasətinin növbəti uğuru olmaqla ölkəmizdəki sosial inkişafın daha bir göstəricisidir. Digər tərəfdən, yeni artımla Azərbaycan minimum əməkhaqqının alıcılıq qabiliyyətinə görə (PPP) MDB ölkələri arasında 2-ci yerə qalxacaq. Minimum əməkhaqqının bu artımı 950 min nəfərin (muzdla çalışanların azı 63 faizini) maaşlarının artımına səbəb olacaq ki, onlardan da 600 mini dövlət, 350 mini qeyri-dövlət sektorunda çalışanlardır.

Burada bir məqamı xüsusi qeyd etmək istərdik: həmin 950 min nəfərin heç də hamısı 250 manatdan aşağı əmək haqqı alanlar deyil və onların mühüm bir hissəsi maaşları 250 manatdan yuxarı olanlardır. Belə ki, ölkəmizdə 19 pillədən ibarət vahid tarif cədvəli üzrə əməkhaqqı sistemi mövcuddur ki, bu sistem vasitəsi ilə dövlət büdcəsindən maliyyələşdirilən sosial, elm, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan işçilərin əməkhaqları tənzimlənir. Vahid tarif cədvəlinin ilk pilləsi minimum əməkhaqqından başlayır və minimum əməkhaqqı artdığı zaman həmin cədvəlin ilk pilləsi artdığı üçün digər üst pillələr üzrə bundan yüksək olan digər əməkhaqqı səviyyələri də zəncirvari qaydada artmış olur. Bu o deməkdir ki, bütün bu pillələr üzrə artımın təsir dairəsi 950 min işçini əhatə edir.

Beləliklə, Azərbaycan minimum əməkhaqqının səviyyəsinə görə təkcə qonşu yox, MDB-yə üzv ölkələrlə müqayisə edildikdə alıcılıq qabiliyyəti indeksi üzrə ikinci yerə sahiblənmiş olacaq. Bu artım digər tərəfdən özəl sektora da böyük təsir göstərir. Çünki bu amil özəl sektorda da işçi qüvvəsinin rəqabət qabiliyyətini gücləndirir və əmək bazarına müsbət təsir edir. Minimum əməkhaqqının artırılması həm də Azərbaycanın makroiqtisadi və beynəlxalq göstəricilərinə müsbət təsir etməklə birbaşa ölkəmizin inkişafına xidmət edir.

18 iyun 2019-cu il tarixində imzalanan digər sərəncamlarla eyni zamanda dövlət sektorunda işləyən müəllimlər, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışanlar, hərbi qulluqçular, hüquq mühafizə orqanları əməkdaşları, həm ümumi, həm də xüsusi növ üzrə dövlət qulluqçuları, hakimlər və digərlərindən ibarət 400 min nəfərin əməkhaqları da cari il sentyabrın 1-dən 20-100 faiz səviyyəsində artırılacaq. Ümumilikdə, ikinci sosial paket 1 milyon 350 min nəfəri əhatə edir ki, onlardan da 1 milyonu dövlət, qalanları özəl sektorda işləyənlərdir. Onu da qeyd edək ki, 2019-cu ildə reallaşan iki sosial paket nəticəsində minimum əməkhaqqının və dövlət sektorunda işləyənlərin əməkhaqlarının artımı üçün dövlət tərəfindən illik 2 milyard manat vəsait ayrılması nəzərdə tutulur. Digər mühüm fakt: 2003-cü ilə nisbətən ölkə üzrə minimum əməkhaqqı 27,7 dəfə artırılaraq 250 manata çatdırılıb, orta aylıq əməkhaqqı isə 7,5 dəfə artaraq 77,4 manatdan 581,2 manata çatıb.

Minimum əməkhaqqının artırılması qeyri-formal məşğulluğa qarşı mübarizənin gücləndirilməsi sahəsində aparılan islahatlarda da müsbət nəticələr verir. Cari ilin ilk rübündə reallaşan ilk sosial paket çərçivəsində minimum əməkhaqqının artımı timsalında bunu aydın görmək olar. Belə ki, 2019-cu ilin əvvəlindən ötən 5 ay ərzində ölkə üzrə əməkhaqqı fondu 18, o cümlədən dövlət sektorunda 15, qeyri-dövlət sektorunda 21 faiz yüksəlib. Muzdla işləyən işçilərin sayı isə 7 faiz və ya 95,6 min, o cümlədən dövlət sektorunda 3,4 faiz və ya 29 247, qeyri-dövlət sektorunda isə 12 faiz və ya 66 360 nəfər artıb.

Azərbaycanda minimum əməkhaqqının artırılması beynəlxalq səviyyədə ölkəmizin reytinqinin daha da yüksəlməsinə, azmaaşlı işçilərin sosial müdafiəsinin gücləndirilməsinə, qeyri-rəsmi əməkhaqlarının leqallaşmasında yeni irəliləyişlərə, dövlət və qeyri-dövlət sahələri üzrə əməkhaqqı fərqliliyin azalmasına, qadınların orta aylıq əməkhaqqının kişilərin orta aylıq əməkhaqqına yaxınlaşmasına da öz müsbət təsirini göstərir. Minimum əməkhaqqı artımı həmçinin işçilərin təkcə bu gün üçün maaş formasında gəlirlərinin çoxalmasına deyil, həmçinin gələcək sosial təminatlarına müsbət təsir edir. Çünki artan əməkhaqlarından sosial sığorta və işsizlikdən sığorta haqları üzrə ödəmələr də çoxalır. Belə olan halda işçinin fərdi hesabındakı pensiya kapitalı daha çox artır ki, bu da onun gələcək pensiya təminatı, habelə gələcəkdə bu və ya digər səbəbdən işini itirərsə, ona təyin olunan işsizlikdən sığorta ödənişinin çox olması baxımından faydalıdır.

Qeyd etdiyimiz kimi, ikinci sosial paket çərçivəsində Prezident İlham Əliyevin yeni qanunvericilik təşəbbüsü kimi əmək pensiyasının minimum məbləğinin 25 faiz artırılaraq cari il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılması təmin ediləcək. Bununla əlaqədar qanunvericilik layihəsi hazırlanaraq Milli Məclisə təqdim olunub. Bu artım Prezident İlham Əliyevin təşəbbüsü ilə cari il ərzində əmək pensiyasının minimum məbləğinin artırılması istiqamətində atılan ikinci mühüm addımdır. Xatırladaq ki, bundan əvvəl dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında pensiyanın minimum məbləği cari il martın 1-dən orta hesabla 40 faizədək artırılaraq 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırılmışdır. Həmin artım ümumilikdə 233 min pensiyaçını əhatə etmişdi. Göründüyü kimi, 2019-cu il ərzində Azərbaycanda minimum pensiyanın məbləği ümumən 72,4 faiz artırılmaqla 116 manatdan 200 manata çatdırılır və bununla da minimum pensiya təqaüdçülər üçün yaşayış minimumunu (149 manat) 34,2 faizədək üstələmiş olur.

Minimum pensiyanın artımı 660 min vətəndaşın pensiyasının, dövlət sektorunda əməkhaqqı artımı isə xüsusi şərtlərlə pensiya təyinatı aparılanlardan (pensiya artımı əməkhaqlarının artımı ilə bağlı olan pensiyaçılar) ibarət 94 min nəfərin pensiyasının artmasına imkan verir. Ümumilikdə, həm minimum pensiyanın artımı, həm də dövlət sektorunda əməkhaqlarının artımı 750 min pensiyaçını əhatə edəcək. Nəticə etibarilə iyun ayında həyata keçirilən sosial islahat paketi 2,1 milyon vətəndaşın əməkhaqqı və pensiya formasında gəlirlərinin ciddi şəkildə artımına imkan verir. Bu artım üzrə dövlətin əlavə maliyyə yükü 2 milyard manatdır.

Prezident İlham Əliyevin sosial siyasətinin davamı kimi cari ilin ötən dövründə həyata keçirilən və əhalinin rifah halının yaxşılaşdırılması, vətəndaş rifahı naminə inqilabi addımların atılmasını təmin edən iki mühüm sosial islahat paketi 4 milyon 200 min vətəndaşı əhatə edir. Sosial-iqtisadi inkişafda yeni mühüm irəliləyişlərə zəmin yaradan həmin addımların atılması üçün dövlət tərəfindən əlavə olaraq illik 3,9 milyard manat ayrılacaq ki, bu da Azərbaycan Prezidentinin ölkə vətəndaşının rifahına xüsusi diqqətini, qayğısını bir daha göstərir.

Əhalinin rifahına xidmət edən bütün bu addımlar eyni zamanda dövlət başçısının rəhbərliyi ilə ölkə iqtisadiyyatının dinamik inkişafı istiqamətində aparılan islahatların uğurlu nəticələri, dayanıqlı iqtisadi tərəqqi hesabına əldə edilən imkanlar hesabına atılır. Bu inkişaf 2019-cu ildə də uğurla davam edir. Hələ 2018-ci ilin yekunları müzakirə edilərkən dövlət başçısı 2019-cu ilin ölkəmiz üçün uğurlu il olacağına əminliyini bildirmişdi. Bunun əməli təsdiqi olaraq, cari ilin ilk rübündə ölkəmizdə ÜDM istehsalı 3, o cümlədən kənd təsərrüfatında məhsul istehsalı 3,6, qeyri-neft sektorunda sənaye istehsalı 15,6, əhalinin gəlirləri 5,5 faiz artıb, ölkə iqtisadiyyatına 2,8 milyard manat (o cümlədən qeyri-neft sektoruna 2 milyard manat) sərmayə yatırılıb.

Qeyd edilənlərlə yanaşı, Prezident İlham Əliyevin sosial islahatlar proqramı əmək, məşğulluq, sosial müdafiə sahələrində idarəçilik və əhaliyə xidmətlərin təkmilləşdirilməsinə, müasir, innovativ iş prinsiplərinin tətbiqi sahəsində yeni irəliləyişlərə imkan yaradıb. Dövlət başçısının 9 avqust 2018-ci il tarixli fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Agentliyinin ("Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi") məqsədi məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həll yollarının tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST layihəsi dövlət sosial xidmətlərinin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunmasına şərait yaradıb.

Cari il mayın 9-da Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə DOST Agentliyinin və ilk "DOST" mərkəzinin açılış mərasimi oldu. Tədbirdə çıxışı zamanı dövlət başçısı "Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək" deyə bildirdi.

"DOST" mərkəzində gün ərzində 400-dək şəxsə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 126 növdə xidmət göstərilir. Yeri gəlmişkən qeyd edək ki, 2019-25-ci illərdə Bakıda və ölkəmizin regionlarında 31 "DOST" mərkəzi istifadəyə veriləcək. Hazırda dünya təcrübəsində oxşar layihələr olsa da, DOST layihəsi dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulması və "bir pəncərə"dən təqdim edilməsi ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırır.

Yeniliklərdən biri də Prezident İlham Əliyevin 5 sentyabr 2018-ci il tarixli fərmanının icrası ilə əlaqədar mühüm islahat tədbirlərindən biri kimi pensiya təyinatının avtomatlaşdırılmış mexanizminin yaradılaraq bu ilin əvvəlindən işə salınmasıdır. Bu gün pensiya hüququ yaranan şəxslərə pensiya heç bir yerə getmədən və heç bir sənəd təqdim etmədən avtomatik təyin olunur. Eləcə də islahatın tərkib hissəsi kimi fərdi hesabında pensiya kapitalı qeydə alınan şəxslərə 2006-cı il yanvarın 1-dək 25 il sosial sığorta stajı avtomatik hesablanır. Avtomatlaşdırılmış pensiya təyinatı sistemi Azərbaycanda ilk proaktiv xidmətdir və bu elektron xidmətin hazırda bütün sosial təminat sistemi boyu genişləndirilməsi işləri aparılır. Həmin fərmanın icrası çərçivəsində ölkəmizdə ilk dəfə sosial reyestr kimi "e-sosial" internet portalı yaradılıb. Şəffaflıq baxımından əhəmiyyətli olan bu portal vasitəsi ilə vətəndaşlar onlarla bağlı toplanmış sosial xarakterli bütün məlumatlara və dövlət sosial xidmətlərinə real vaxt rejimində operativ çıxış, habelə öz sosial hüquqlarının reallaşması vəziyyətinə daim nəzarət imkanı qazanıb. Ümumilikdə bu gün nazirliyin əksər fəaliyyət sahələri üzrə e-xidmətlərin göstərilməsi üzrə alt sistemləri əhatə edən, 18 alt sistemdən ibarət Mərkəzləşdirilmiş İnformasiya Sistemi fəaliyyət göstərir.

Onlardan biri olan "Məşğulluq" alt sistemi məşğulluq sahəsində işsiz və işaxtaran vətəndaşlara, eləcə də işəgötürənlərə məşğulluq sahəsində tədbirlərin elektron platforma üzərindən təqdim edilməsinə imkan yaradır. Bu alt sistemi işsiz və işaxtaran şəxslərin reyestrini, məşğul şəxslərin reyestrini, ölkə üzrə mövcud iş yerlərinin vakansiya bankını, eləcə də məşğulluq xidmətlərinin elektronlaşmasını təmin edir. Yaxın gələcəkdə həmin sistem vasitəsilə hər bir işsiz və işaxtaran şəxs yaşadığı ərazidə və ümumilikdə ölkə üzrə mövcud olan vakansiyalara birbaşa elektron şəkildə müraciət edə biləcək, eyni zamanda işəgötürənlər və sahibkarlar şəffaf şəkildə vahid veb-səhifədə axtardıqları işçi qüvvəsinə çıxış əldə edəcək.

Dövlət başçısının tapşırığına uyğun olaraq, aztəminatlı ailələrin sosial yardım proqramından asılılığının aradan qaldırılmasına və kiçik biznesə çıxışına imkan yaradan özünüməşğulluq proqramının əhatə dairəsi 2017-ci illə nisbətən 2018-ci ildə 6,5 dəfə genişləndirilib və 7267 nəfər özünüməşğulluğa cəlb edilib. Onların əksəriyyətini əlilliyi olan şəxslər, sağlamlıq imkanları məhdud uşaqları olan valideynlər, məcburi köçkünlər, şəhid ailəsi üzvləri, ünvanlı sosial yardım alan ailələrin üzvləri və digər həssas qruplardan olan şəxslər təşkil edir. Bu il proqrama cəlb olunanların sayı 10 minə çatdırılacaq. 2020-ci ildə isə Dünya Bankı ilə əməkdaşlıqla özünüməşğulluq proqramı daha da genişləndiriləcək.

Mühüm sosial proqramlar da ildən-ilə genişlənir. Şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə dövlət başçısının xüsusi qayğısı nəticəsində ötən il nəzərdə tutulduğundan 3 dəfədən çox olmaqla 626 mənzil təqdim edilib. Cari ildə isə azı daha 800 mənzil verilməsi nəzərdə tutulub ki, onlardan da 60-ı iyunun 26-da təqdim edilib. Ümumilikdə, indiyədək nazirlik tərəfindən şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 6714 mənzil verilib. Həmçinin müharibə əlillərinə ötən il 265 minik avtomobili verilib. Cari ildə isə həmin kateqoriyadan olan vətəndaşlara nəzərdə tutulduğundan 3,2 dəfə çox - 600-ə yaxın avtomobil verilməsi planlaşdırılır. Artıq 150 avtomobil təqdim edilib. Ümumilikdə, indiyədək sözügedən kateqoriyadan olan şəxslərə 6300-dək avtomobil verilib.

Prezident İlham Əliyevin sosial siyasətində şəhid ailələrinə xüsusi qayğı mühüm yer tutur. Ötən il prezident seçkilərində inamlı qələbəyə nail olduqdan sonra dövlət başçısının 19 aprel 2018-ci il tarixli ilk imzaladığı fərmanın şəhid ailələri ilə bağlı olması da bunu təsdiq edir. Dövlət başçısının və Birinci vitse-prezident Mehriban Əliyevanın cari il yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə görüşü də şəhid ailələrinə yüksək səviyyədə diqqət və qayğının ifadəsidir. Həmin görüşdən sonra 28 yanvar 2019-cu il tarixli fərman imzalanmaqla birdəfəlik ödəmə verilən şəhid vərəsələrinin əhatə dairəsi daha da genişləndirilib. Artıq şəhid vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramı 85,4 faiz icra olunub, yəni 12268 şəhiddən 10500-ə yaxın şəhidin 15500-dək vərəsəsi ödəmə ilə təmin edilib.

Ölkəmizdə sosial təminat və reabilitasiya sisteminin əhatə dairəsi də xeyli genişlənir. Bakıda və bölgələrdə yeni reabilitasiya mərkəzləri, sığınacaq kompleksləri, sosial əhəmiyyətli digər yeni müəssisələr yaradılır. Bu sırada penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzinin tikilməsini, Reabilitasiya mərkəzləri şəbəkəsinin bölgələr üzrə genişləndirilməsini və infrastrukturunun təkmilləşdirilməsini, Respublika Əlillərin Bərpa və Uşaq Bərpa mərkəzlərində, digər bərpa və sosial xidmət müəssisələrində müasir tələblərə uyğun şəraitin yaradılmasını göstərmək olar. İlin sonunacan yeni bərpa və sosial xidmət mərkəzlərinin açılışı, həmçinin ayrı-ayrı regionlarda yeni reabilitasiya müəssisələrinin tikintisinə başlanması nəzərdə tutulur.

Sosial xidmət üzrə də çoxsaylı layihələr icra olunur. Belə ki, Prezident İlham Əliyevin "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" 1 iyun 2019-cu il tarixli sərəncamı bu kateqoriyadan olan insanlara reabilitasiya yönümlü sosial xidmətlərin göstərildiyi mərkəzlərin sayının dəfələrlə artırılmasına imkan verib. Sərəncam sosial sifarişlər əsasında icra olunan reabilitasiya yönümlü sosial xidmət layihələri üzrə xüsusi qayğıya ehtiyacı olan uşaqlar və digər şəxslər üçün mərkəzlərin sayının 3,5 dəfə artırılmasına, nəticə etibarilə 200-ə yaxın belə mərkəzin fəaliyyət göstərməsinə şərait yaradıb.

Ölkəmizdə bütün sahələrdə, o cümlədən sosial sahədə gedən inkişaf prosesləri, aparılan islahatların uğurlu nəticələri beynəlxalq aləmdə də maraqla qarşılanır. Dünyanın nüfuzlu təşkilatlarından olan Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) Avropa Regional Sosial Təminat Forumunun Bakıda keçirilməsini qərara alması bunun təzahürlərindən biri idi. Cari ilin 14-16 may tarixlərində ölkəmizin yüksək səviyyədə evsahibliyi etdiyi forum zamanı Azərbaycanın sosial islahatları bir daha təqdir olundu.

BSTA tərəfindən təşkilatın əhatə etdiyi ölkələrin (regionlar üzrə) sosial təminat sahəsində həyata keçirdikləri layihələrin qiymətləndirilməsi məqsədilə hər üç ildən bir "Yaxşı Təcrübə" müsabiqəsi keçirilir. Növbəti müsabiqədə bizim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi dörd layihənin hər biri uğurlu təcrübə nümunələri kimi xüsusi mükafatlara layiq görüldü. Bunlar ünvanlı dövlət sosial yardımı və əlilliyin qiymətləndirilməsi üzrə elektron sistemlər, özünüməşğulluq proqramı və qeyri-rəsmi məşğulluğun qarşısının alınması layihələridir.

Bütün qeyd edilənlər Prezident İlham Əliyevin sosial islahatlar proqramı nəticəsində Azərbaycanın sosial inkişafında davamlı irəliləyişlərlə xarakterizə olunan yeni keyfiyyət mərhələsinə keçildiyini göstərir və ölkəmizdə sosial firavanlığın təminatı istiqamətində mühüm addımların gələcəkdə də davam edəcəyinə əminlik yaradır.

**Sahil BABAYEV,**
***Əmək və Əhalinin Sosial Müdafiəsi naziri***












# Dövlət Neft Fondunun Müşahidə Şurasının iclası

## Baş Nazir Novruz Məmmədov növbəti müddətə Neft Fondunun Müşahidə Şurasının sədri seçilib

İyulun 4-də Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının iclası keçirilib. ARDNF-nin Müşahidə Şurasının qərarı ilə Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov növbəti müddətə Müşahidə Şurasının fəaliyyətdə olan sədri seçilib.

Fondun İctimaiyyətlə əlaqələr departamentindən AZƏRTAC-a bildirilib ki, iclasda ARDNF-nin 2018-ci il üzrə maliyyə fəaliyyəti haqqında illik hesabatına, fondun 2018-ci il büdcəsinin icrası barədə məsələlərə baxılıb. Müşahidə Şurası tərəfindən ARDNF-nin 2018-ci ildə maliyyə fəaliyyəti haqqında hesabatına dair müstəqil auditorun ("PraysvoterhausKupers Audit Azərbaycan" MMC) rəyi, 2018-ci il büdcəsinin icrası barədə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi, habelə Neft Fondunun 2018-ci il büdcəsinin gəlirlərinin 17 milyard 614,1 milyon manat və yaxud 115 faiz səviyyəsində, büdcə xərclərinin isə 11 milyard 455,6 milyon manat və ya 99,8 faiz səviyyəsində icra edildiyi nəzərə alınaraq fondun 2018-ci il büdcəsinin icrasının təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi qərara alınıb.

Müşahidə Şurası tərəfindən, eyni zamanda, ARDNF-nin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlarda Neft Fondunun maliyyə və büdcəsinin icrası barədə hesabatların son təqdim edilməsi müddətində dəyişikliklərin edilməsi məqsədəuyğun hesab olunub və bu dəyişikliklərin Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tövsiyə edilib.

# Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı üçün geniş perspektivlər var



İyulun 4-də Baş Nazirin müavini Əli Əhmədov Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Şərq Tərəfdaşlığı çərçivəsində Avropa İttifaqının yardımı hesabına Azərbaycanda həyata keçirilən layihələrin icra vəziyyəti müzakirə olunub. Ölkəmizdə həyata keçirilən layihələrə Avropa İttifaqının göstərdiyi dəstəyə görə minnətdarlığını bildirən Əli Əhmədov qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsi üçün hökumət tərəfindən bütün zəruri addımların atıldığını qeyd edib. Baş Nazirin müavini Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlığın mövcud durumundan bəhs edərək münasibətlərin inkişafı üçün geniş perspektivlərin olduğunu deyib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas isə bildirib ki, Azərbaycan ilə Avropa İttifaqı arasında mövcud olan etibarlı tərəfdaşlıq əlaqələri xüsusi əhəmiyyətə malikdir. O, növbəti illərdə fəaliyyət proqramları çərçivəsində Aİ-nin Azərbaycanda icra olunacaq yeni layihələrinin daha səmərəli və vaxtında həyata keçirilməsi üçün zəruri olan işlər haqqında fikirlərini də bildirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

# UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində dörd paralel iclas keçirilib



Bakı Konqres Mərkəzində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 4-də paralel iclaslarla işini davam etdirib.

AZƏRTAC xəbər verir ki, ilk iclas UNESKO-nun Ümumdünya İrs Komitəsinin fəaliyyətinə həsr edilib.

Bildirilib ki, komitəyə 21 ölkə daxildir. Hər il komitəyə bir dövlət rəhbərlik edir. İldə bir dəfə toplantı keçirilir. Komitənin nizamlı olaraq yenilənən siyahısına 134 ölkəyə aid 800-ə yaxın abidə daxildir.

Çıxışlarda bu abidələrin qorunma vəziyyəti müzakirə olunub. Bildirilib ki, hazırda Ümumdünya İrs Komitəsinin Çağrı mərkəzləri və iki elektron postu fəaliyyət göstərir. Quruma daxil olan hər bir sorğu ətraflı cavablandırılır. Məqsəd tərəfləri görüşlərə cəlb etməkdir.

İclasda qurumun son illər müxtəlif ölkələrdə reallaşdırdığı layihələr və gələcək planları barədə məlumat verilib.

Növbəti iclasda dini tarixi memarlıq abidələrinin qorunub saxlanılması ilə bağlı müzakirələr aparılıb. Çıxış edənlər öz ölkələrində dini-tarixi abidələrin mühafizəsi və bərpası istiqamətində görülən işlərdən danışıblar.

Bildirilib ki, bu abidələr tarixiliklə yanaşı, həmin ölkənin dini inanclarını da ifadə edir. Bu baxımdan bu abidələrin qorunması və gələcək nəsillərə ötürülməsi vacibdir.

Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində iclaslardan biri Abidə Menecerlərinin "Mirasın qorunmasında təbiət-mədəniyyət əlaqələrində potensialın artırılması" mövzusuna həsr edilib. Tədbirdə iştirakçıların məruzələri dinlənilib. Bildirilib ki, bu mövzuda ilk seminar 2018-ci ilin sentyabrında Yaponiyada keçirilib. TSUKUBA Universiteti və Dünya İrs Komitəsi ilə birgə təşkil edilən tədbirdə beynəlxalq simpozium, təbii fəlakətlər zamanı təbii və mədəni mülkiyyətin mühafizəsində qəti addımlar, bu sahədə menecment və digər mövzular müzakirə edilib.

İclasda, həmçinin Asiya regionunun təbii və mədəni mülkiyyətinin mühafizəsi, Dünya İrs Siyahısında olan ərazilərin qorunması məsələləri ilə bağlı fikirlər səsləndirilib.

Üzv ölkələrin nümayəndələrinin iştirakı ilə keçirilən növbəti iclasda büdcə məsələlərinə toxunulub. İclasda 180 ölkənin mədəni irsin qorunmasına ayırdığı maliyyə fondu və xərcləri nəzərdən keçirilib, işçi qrupların hesabatları dinlənilib.

Paralel iclaslar müzakirələrlə davam etdirilib.

# Bakı sessiyası çərçivəsində keçirilən panel iclaslarda maraqlı müzakirələr aparılıb



UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində iyulun 4-də günün ikinci yarısında keçirilən panel iclaslar maraqlı müzakirələrlə yadda qalıb.

AZƏRTAC xəbər verir ki, "Qapaq Nan: Ən yaxşı təcrübələrin bölüşülməsi" mövzusunda iclasda əvvəlcə bu irsə aid videoçarx nümayiş olunub.

UNESKO-nun Ümumdünya İrs Siyahısında yer alan Qədim And sivilizasiyası dövrünə aid antik yol sistemi olan Qapaq Nan və ya Əsas And Yolu Argentina, Boliviya, Çili, Kolumbiya, Ekvador və Perunun ümumbəşəri dəyərə malik ortaq tarixi mədəni irsi hesab edilir. Bu irs nümunəsinin qorunması və idarə olunması istiqamətində altı iştirakçı dövlət birgə ciddi iş aparır.

UNESKO-nun Baş direktorunun müavini Ernesto Ottone Ramirez 2014-cü ildə Ümumdünya İrs Siyahısına daxil edilən bu mədəni irs barədə məlumat verib. Bildirilib ki, bu yol bir vaxtlar Cənubi Amerikada nəqliyyat, ticarət və müdafiə xarakteri daşıyıb. Bu layihə mədəni irs nümunələrinin mühafizəsi üçün beynəlxalq əməkdaşlığın aparılması baxımından ən yaxşı nümunədir.

Günün növbəti panel iclası təbii dünya irsi nümunələrinə həsr olunub. İclasda qlobal əhəmiyyətli mədəni irs nümunələrinin regional dəyərləndirilməsi, təbii dünya irsi mülkiyyətlərinin ölkələrin beynəlxalq sərhədləri boyunca yerləşməsi ilə bağlı müzakirələr aparılıb. Məruzəçi Hindistan, Pakistan, Çin sərhədləri boyunca uzanan təbii irs mülkiyyətlərinin çoxunu milli parkların təşkil etdiyini bildirib.

"Dünya İrsi Mərkəzi barədə məlumatın yayılması: İnformasiya və ziyarət yerləri" mövzusuna həsr olunmuş panel iclasda tarixi və mədəni irs abidələrinə ziyarətçilərin daha çox cəlb olunmasına dair fikirlər səsləndirilib. Almaniyanın UNESKO üzrə Milli Komissiyasının təşkilatçılığı ilə keçirilən iclasda mədəni irs nümunələri barədə məlumatların yayılması ilə bağlı informasiya mərkəzlərinin təcrübəsi bölüşdürülüb.

# "Heydər Əliyev Azərbaycan gəncliyinin düşüncəsində. 50 il" layihəsinin yekunu və eyniadlı portalın təqdimatı olub





İyulun 4-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Heydər Əliyev Azərbaycan gəncliyinin düşüncəsində. 50 il" adlı layihənin yekununa və eyniadlı portalın təqdimatına həsr edilən tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbirdə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Sonra çıxış edən YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin sədri, layihənin koordinatoru Salman Salmanov bildirib ki, layihə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 50 illiyinə həsr olunub. O, layihə və portal haqqında geniş məlumat verib və qeyd edib ki, gənclər bu layihədə fəal iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov gənclərin həyata keçirdikləri layihəni yüksək qiymətləndirib. Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən danışan Əli Əhmədov deyib ki, müasir Azərbaycan tarixinin son 50 illik dövrü Heydər Əliyevin adı ilə bağlıdır.

Əli Əhmədov qeyd edib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə gələnə qədər respublikamız keçmiş SSRİ-də geridə qalan respublikalardan biri idi. Amma Ulu Öndər 14 iyul 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəldikdən sonra bütün sahələrdə inkişaf başladı. Belə ki, sosial-iqtisadi, mədəniyyət, elm, təhsil sahələrində ciddi inkişaf baş verdi və qısa zamanda Azərbaycan keçmiş ittifaq respublikaları arasında ön sıralara çıxdı. YAP sədrinin müavini vurğulayıb ki, Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə milli inkişafın və intibahın əsası qoyuldu. Eyni zamanda milli özünüdərk prosesi formalaşdı ki, bunun nəticəsində 1980-ci illərin sonunda xalqımız azadlıq mübarizəsinə qalxmış oldu.

Müstəqil Azərbaycanın Ulu Öndər Heydər Əliyevin şah əsəri olduğunu deyən Baş Nazirin müavini bildirib ki, bu gün ölkəmizin bütün nailiyyətlərinin kökündə Ümummilli liderin siyasəti dayanır. Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi nəticəsində Azərbaycan sürətlə inkişaf edir, güclənir, əhalinin rifah halı daha da yüksəlir. Eyni zamanda Azərbaycanın beynəlxalq miqyasda da nüfuzu artmaqda, mövqeləri möhkəmlənməkdədir. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən, ən perspektivli ölkələrdən biri kimi qəbul olunur. Bütün bu uğurların əsasında Heydər Əliyev siyasəti dayanır. Bu siyasət Azərbaycana yalnız və yalnız uğurlar gətirir. Baş Nazirin müavini gəncləri Heydər Əliyev irsini dərindən mənimsəməyə, Prezident İlham Əliyevin ətrafında daha sıx birləşməyə çağırıb.

# UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası öz işini davam etdirib

## Sessiyanın dördüncü günündə bir sıra qərarlar qəbul edilib



UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 4-də öz işini davam etdirib. AZƏRTAC xəbər verir ki, sessiyanın dördüncü günündə Nepalın Katmandu vadisində yerləşən maddi mədəni abidələrin vəziyyəti haqqında hesabat dinlənilib.

Tədbiri açan sessiyanın təşkilat komitəsinin sədri, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev müzakirə olunacaq hesabatdan danışıb.

Çin, İndoneziya, Tunis, Zimbabve, Küveyt və digər ölkələrin nümayəndələri çıxış edərək Katmandu vadisindəki abidələr barədə fikirlərini söyləyiblər. Bildirilib ki, 2015-ci ildə Nepalda baş verən güclü zəlzələ zamanı ölkədə tarixi abidələrə xeyli ziyan dəyib və onlar dağılmaq təhlükəsi ilə üzləşib.

Çıxış edən bəzi ölkələrin nümayəndələri Məşvərət Şurasından Katmandu vadisinin Təhlükəli Vəziyyətdə olan Abidələrin Siyahısına salınmasını təklif ediblər. Orada 40-a yaxın tarixi maddi irs abidələri var.

Nepal nümayəndəsi tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirərək Katmandu vadisindəki tarixi abidələrin vəziyyəti və burada görülən işlər barədə məlumat verib. O deyib ki, Nepal 2015-ci ildən Ümumdünya İrs Komitəsinin tövsiyələrini yerinə yetirməyə çalışıb və onlarla abidənin reabilitasiyasına cəhd edib. Nepal Təhlükəli Vəziyyətdə olan Abidələrin Siyahısına düşməkdənsə bu işləri davam etdirməyə cəhd edir. "Biz düşünürük ki, Ümumdünya İrs Komitəsinin dəstəyi ilə birlikdə biz Katmandu Vadisində restavrasiya işlərini tamamlaya bilərik. Buna görə də bizə əlavə bir il verilməsini xahiş edirik. Bildiririk ki, restavrasiya işləri yeni konvensiya əsasında aparılacaq. Nepal hökuməti müvafiq dəstək almaq üçün artıq UNESKO-nun Ümumdünya İrs Komitəsinə müraciət edib. Söz veririk ki, konservasiya işlərini vaxtında yerinə yetirməyə çalışacağıq", - deyə o əlavə edib.

Katmandu vadisinin Təhlükəli Vəziyyətdə olan Abidələrin Siyahısına salınması təxirə salınıb və Nepal hökumətinə qeyd olunan çatışmazlıqların aradan qaldırılması ilə bağlı əlavə bir il vaxt verilib.

Sessiyada, həmçinin Pakistanın Lahor şəhərindəki tarixi abidələr, Fort və Şalamar bağları ilə bağlı müzakirələr aparılıb. Bildirilib ki, yerli hökumətin çəkmək istədiyi metro xətti şəhərdəki tarixi abidələrə ciddi zərər vura, eyni zamanda, Fort və Şalamar bağlarında yaşıllıqların məhvi fauna və floraya təsir göstərə bilər. Pəncab əyalətinin paytaxtı sayılan Lahor şəhəri Ravi çayı sahilində, Hindistanla sərhədə yaxın ərazidə yerləşir. Bu qədim şəhərdəki mədəni irsin qorunması olduqca vacibdir.

Pakistanın nümayəndəsi ölkəsinin mədəni irsin qorunmasına hər zaman sadiq qaldığını bildirib. O deyib ki, cari ilin aprelində beynəlxalq missiyanın iştirakı ilə əraziyə baxış keçirilib. Tövsiyə olunan məsələlərin bir hissəsi artıq öz həllini tapıb, digərlərinin də həyata keçirilməsi davam etdiriləcək. "Yerli və beynəlxalq ekspertlərin Lahor şəhərindəki tarixi abidələrin, Fort və Şalamar bağlarında fauna və floranın qorunması, yaşıllıqların bərpası istiqamətində verilən tövsiyələrlə bağlı ölkəmiz üzərinə düşən öhdəliyi yerinə yetirmək istiqamətində ciddi işlər aparır", - deyə pakistanlı nümayəndə qeyd edib.

Çıxışlar zamanı Azərbaycanın Pakistanla bağlı hesabata əlavə etdiyi dəyişikliklər müsbət qarşılanıb. Müzakirələrin nəticəsi olaraq Pakistan hökumətinə əlavə vaxt verilib.

Sessiyada Pakistandakı Makli və Thattada yerləşən tarixi məkanlar barədə də müzakirələr aparılıb. Bildirilib ki, Pakistanla bağlı bu layihədə hər iki şəhərdəki tarixi abidələrin real vəziyyəti və onların konservasiyası ilə bağlı görüləcək işlər yer alıb. Hər iki şəhərdəki tarixi abidələrlə bağlı qərar qəbul edilib.

Müzakirə olunan növbəti məsələlər sırasında Asiya-Sakit okean regionunda yerləşən mədəni mirasın qorunması istiqamətində görülən işlər yer alıb. Regionda yerləşən Çin, Şri-Lanka, Tailand, Yaponiya, Özbəkistan, İndoneziya, Banqladeş, Nepal və digər ölkələrdə aparılan işlərin tarixi irsə mənfi təsirləri açıqlanıb.

UNESKO-nun Ümumdünya İrs Mərkəzi və ICOMOS-un nümayəndələri çıxış edərək Səmərqənddə olan tarixi abidələrin vəziyyəti ilə bağlı fikirlərini səsləndiriblər. Qeyd olunub ki, Səmərqənddə yaradılmaqda olan turizm zonası ilə bağlı bəzi abidələrin vəziyyəti narahatlıq doğurur və üzv dövlət bu layihə ilə bağlı məlumatları vaxtında komitəyə təqdim etməyib. Yaxşı olardı ki, tez bir zamanda şəhərin baş planı haqqında komitəyə məlumat verilsin.

Bildirilib ki, Özbəkistan hökuməti Səmərqənddə reallaşdırılan 5 mühüm layihə barədə UNESKO-ya məlumat versə də, bəzi məsələlərdə hələ də razılığa gəlinməyib.

Günün ikinci yarısında sessiya öz işini yarımçıq qalmış məsələlərin müzakirəsi ilə davam etdirib. Əvvəlcə Özbəkistanın Səmərqənd şəhərinin qədim hissəsinin konservasiyası ilə bağlı məsələ müzakirə edilərək qərar qəbul olunub. Həmin qərarda şəhərin qədim hissəsində hotellərin tikintisinin dayandırılması və konservasiya işlərinin gücləndirilməsi məsələsi yer alıb. Bu işlərin görülməsi zamanı Ümumdünya İrs Komitəsinin və ICOMOS ekspertlərinin tövsiyələrinin nəzərə alınmasının zəruriliyi vurğulanıb. Bildirilib ki, 44-cü sessiyaya qədər Özbəkistan tərəfi quruma öz hesabatını təqdim etməlidir.

Növbəti müzakirə Bolqarıstandakı qədim liman şəhəri Nesebırdakı vəziyyətlə bağlı olub. Belə ki, üzv dövlətin məruzəsində qeyd edilən müsbət dəyişikliklər ICOMOS ekspertlərinin hesabatında da öz əksini tapıb. Buna görə də Bolqarıstandan Nesebır şəhərinin vəziyyətini yaxşılaşdırmaq üçün konservasiya tədbirlərini gücləndirmək, tövsiyə edilən təklifləri yerinə yetirmək xahiş edilib. Bolqarıstan 2021-ci ildə keçiriləcək 45-ci sessiyada hesabat verməlidir. Əgər müsbət dəyişiklik olmazsa, o zaman Nesebır təhlükə altında olan məkanlar siyahısına daxil ediləcək.

Sonra əvvəlcədən sessiya iştirakçılarına paylanmış bir neçə sənəd - Orta Reyn, Monteneqro, Kiji (Rusiya), Diyarbəkir meşəsi (Türkiyə), Buda qəsri (Macarıstan) və digər məsələlərə dair qərar layihələri müzakirəsiz qəbul edilib.

Sessiyada Çilinin Valparaiso şəhəri üzrə, eləcə də Karib dənizi və Latın Amerikası üzrə qısa hesabatlar dinlənilib.

Sessiya öz işini bu gun davam etdirir.

# Ədliyyə naziri Sumqayıtda vətəndaşları qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirir.

AZƏRTAC xəbər verir ki, dövlət başçısının tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyulun 4-də Ədliyyə naziri Fikrət Məmmədov Sumqayıt şəhərində vətəndaşları qəbul edib.

Qəbul zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şəraitin yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyulun 4-də Şəki, Abşeron və Gədəbəy rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlət başçısının da qeyd etdiyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlar imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Milli Məclisin nümayəndə heyəti ATƏT Parlament Assambleyasının illik sessiyasının işində iştirak edir

Lüksemburqda Avropa Yığıncaqlar Mərkəzinin (European Convention Center) binasında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının (ATƏT PA) 28-ci illik sessiyası işə başlayır. Sessiyada Şimali Amerika, Avropa və Asiya ölkələrinin 300-ə yaxın parlamentarisi iştirak edir.

AZƏRTAC xəbər verir ki, sessiyada Azərbaycan Respublikasını Milli Məclis Sədrinin müavini, Azərbaycan parlamentinin ATƏT PA-da nümayəndə heyətinin rəhbəri Bahar Muradovanın başçılığı ilə ölkəmizin qanunverici orqanının nümayəndə heyəti təmsil edir. Budəfəki illik sessiya "Təhlükəsizliyin möhkəmləndirilməsi naminə davamlı inkişafa kömək: parlamentarilərin rolu" mövzusuna həsr edilib.

İllik sessiya ATƏT Parlament Assambleyasının ən böyük tədbiridir. Gözlənildiyinə görə, builki sessiya Lüksemburq Bəyannaməsinin qəbul edilməsi ilə başa çatacaq. Bu siyasi sənəddə milli hökumətlərə, parlamentlərə və beynəlxalq birliyə siyasət, təhlükəsizlik, iqtisadiyyat, ətraf mühit və insan haqları sahəsində tövsiyələr əks olunacaq.

# Milli Məclisin nümayəndə heyətinin rəhbəri ATƏT PA-nın sessiyasında çıxış edib




Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının (ATƏT PA) 28-ci illik sessiyası çərçivəsində ATƏT PA-nın Daimi Komitəsinin iclası davam edir. Təşkilatın sədri Georgi Seretelinin məruzəsi ətrafında çıxışlar başlanıb.

Çıxış üçün söz alan Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Məclis Sədrinin müavini Bahar Muradova qeyd edib ki, davamlı inkişaf sülhün, sabitliyin, firavanlığın, demokratiyanın və insan haqlarının müdafiəsinin təmin edilməsi üçün zəruri şərtdir. Siyasətçi 2030-cu ilə qədər yoxsulluğun aradan qaldırılmasına və iqlimin müdafiəsinə yönəlmiş təxirəsalınmaz tədbirlər görməyə, habelə zorakı ekstremizmin, kütləvi miqrasiyanın və münaqişələrin qarşısının alınması məqsədilə dialoqa şərait yaratmağa çağırıb.

"Terrorizmə, korrupsiyaya və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə təhlükəsizlik sahəsində gündəliyimizin əsas mövzusu olaraq qalır", - deyən B.Muradova daha sonra xatırladıb ki, Azərbaycanın təşəbbüsü ilə ATƏT PA-nın himayəsi altında İpək Yoluna Dəstək Qrupu və Bakı Parlament Platforması yaradılıb.

Azərbaycan nümayəndə heyətinin rəhbəri vurğulayıb: "Məhz milli, regional və qlobal miqyaslı bu cür təşəbbüslər 2030-cu il gündəliyinin hədəflərinə nail olmaqda parlamentarilərin rolunun artırılmasına şərait yaradacaq".

# Azay Quliyev yenidən ATƏT PA-nın "İpək Yoluna Dəstək Qrupu"nun sədri seçilib




Bu gün Lüksemburqda başlayan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlamentlərarası Assambleyasının (ATƏT PA) 28-ci illik sessiyası çərçivəsində ATƏT PA-nın "İpək Yoluna Dəstək Qrupu"nun (Silk Road Support Group - SRSG) 6-cı iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, bu qrupa sədrlik edən ATƏT PA-nın vitse-prezidenti, Milli Məclisin deputatı Azay Quliyev özünün giriş nitqində iclas iştirakçılarını salamlayıb və Özbəkistan nümayəndə heyətinin də SRSG-yə qoşulduğunu bəyan edib.

İclas iştirakçıları qrup sədrinin SRSG-nin fəaliyyətinə dair hesabat məruzəsini dinləyib və təsdiq ediblər.

Qrupda təşkilati məsələlərə də baxılıb. Azay Quliyev yeni müddətə təkrarən qrupun rəhbəri seçilib. İsveçrəli deputat Filippo Lombardi və onun Serbiyadan olan həmkarı Stefana Miladinoviç qrupun sədr müavinləri seçiliblər.

Qrupun işində ATƏT PA-nın sədri Georgi Tsereteli, təşkilatın baş katibi Roberto Montella və ATƏT PA-nın xəzinədarı Doris Barnet iştirak və çıxış ediblər. Georgi Tsereteli öz çıxışında bu cür təşəbbüslərin əhəmiyyətini qeyd edib. O vurğulayıb ki, dəstək məhz siyasi xarakter daşıyır, çünki belə proqramlar bütün ATƏT məkanında iqtisadi əməkdaşlığın, sülhün və təhlükəsizliyin möhkəmlənməsinə istiqamətlənib.

AFR nümayəndə heyətinin rəhbəri, ATƏT PA-nın xəzinədarı Doris Barnet də dəstəyini ifadə edərək Almaniyanın da bu qrupa qoşulmaq istədiyini bəyan edib. O qeyd edib ki, yalnız Şərqlə Qərbin ikitərəfli və qarşılıqlı fəaliyyəti sayəsində uğur qazanmaq mümkündür.

Monteneqro parlamentinin spikeri İvan Brayoviç də qrupa dəstəyini ifadə edib və bu cür təşəbbüslərin birləşdirici rolunu vurğulayıb.

İsveçrə nümayəndə heyətinin başçısı Marqareta Kiner Hellen iclas iştirakçılarına sentyabrın 5-7-də Alplardakı Andermattedə keçiriləcək SRSG İsveçrə Beynəlxalq konfransının proqramı barədə məlumat verib.

Türkiyə nümayəndə heyəti qrup iştirakçılarını konfranslardan birini gələn ilin aprelində İstanbulda keçirməyə dəvət edib. İtaliya nümayəndə heyəti isə bu tədbirlərdən birini 2020-ci ilin noyabrında onların ölkəsində keçirməyi təklif edib.

Xatırladaq ki, SRSG 2017-ci ildə ATƏT PA-nın Minskdə keçirilən 26-cı sessiyasında yaradılıb. Fəaliyyətinə 17 dövlətin iştirakı ilə başlayan qrupun üzvlərinin sayı bu gün 25-ə çatıb. Bu, Böyük İpək yolunun beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin bariz nümunəsidir.

# Azərbaycan Avropa Şurasının bərabərhüquqlu üzvü kimi hər zaman öz öhdəliklərinə məsuliyyətlə yanaşıb



İyulun 4-də Milli Məclisin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvləri qurumun Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞ PA-dakı nümayəndə heyətimizin rəhbəri Səməd Seyidov görüşdə Azərbaycan ilə qurum arasındakı əməkdaşlığın əhəmiyyətindən danışıb. Bildirilib ki, Azərbaycan Avropa Şurasının bərabərhüquqlu üzvü kimi hər zaman öz öhdəliklərinə məsuliyyətlə yanaşıb. Əlaqələrin inkişafında həmməruzəçilər mühüm rol oynayır.

Səməd Seyidov ölkəmizdə son dövrdə bütün sahələrdə həyata keçirilən islahatlardan söhbət açıb, parlamentin bu istiqamətdə gördüyü işləri diqqətə çatdırıb. Bildirib ki, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlarla bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi prosesi fəal surətdə həyata keçirilir və bu səbəbdən parlamentin növbədənkənar sessiyasının iclasları hələ davam edir. Qeyd edilib ki, ölkədə insanların hüquq və azadlıqlarının müdafiəsi, onların həyat şəraitinin yaxşılaşdırılması, firavan yaşaması üçün mühüm addımlar atılır. Bununla bağlı qanunvericilik bazası təkmilləşdirilir. O, AŞ PA-da təmsil olunan deputatlarımızın qurumun bütün tədbirlərində səmərəli fəaliyyəti barədə də danışıb.

AŞ PA Monitorinq Komitəsinin həmməruzəçisi Stefan Şennak Azərbaycanın son illərdə yüksək templə inkişaf etməsindən məmnunluğunu bildirib. O, tərəqqinin davamlı olması üçün dünyada və bölgədə sülhün və əmin-amanlığın bərpasının böyük önəm kəsb etdiyini deyib.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə deputatlar Sahibə Qafarova, Sevinc Fətəliyeva və Asim Mollazadə də iştirak ediblər.

# *Stefan ŞENNAK:* "AŞ PA Azərbaycan ilə əməkdaşlığın möhkəmlənməsində maraqlıdır"

İyulun 4-də Milli Məclisdə təmsil olunan siyasi partiyaların rəhbərləri AŞ PA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, görüşdə Yeni Azərbaycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə, Vəhdət Partiyasının sədri Tahir Kərimli, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev iştirak ediblər.

YAP icra katibinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov qonaqları salamlayaraq bu cür görüşlərin fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətli olduğunu söyləyib. Qeyd edilib ki, Azərbaycan AŞ PA ilə əlaqələrə böyük önəm verir və gələcəkdə əməkdaşlığı daha da genişləndirmək niyyətindədir. Deputatlarımız təşkilatın keçirdiyi müxtəlif tədbirlərdə fəal iştirak edir, qurum çərçivəsində müzakirəyə çıxarılan məsələlərə obyektiv münasibət bildirirlər.

Görüşdə siyasi partiyaların rəhbərləri ölkənin ictimai-siyasi həyatındakı fəaliyyətləri barədə məlumat verib, qanun yaradıcılığı prosesində fəal iştirak etdiklərini söyləyiblər.

Deputatlar Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikirlərini bildiriblər.

AŞ PA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak səfər çərçivəsində keçirdiyi görüşlərdən və apardıqları danışıqlardan bəhs edib. Bildirilib ki, AŞ PA Azərbaycanda gedən demokratik prosesləri diqqətlə izləyir və ölkəmizlə əməkdaşlığın möhkəmlənməsində maraqlıdır.

Söhbət zamanı Azərbaycan və Avropa Şurası arasında münasibətlər, monitorinq prosesinin gedişi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Görüşdə deputat, Yeni Azərbaycan Partiyasının üzvü Rauf Əliyev də iştirak edib.

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# Çovdar əlvan metal filizi yatağında qədim məzarlıq aşkar edilib





Daşkəsən rayonunda yerləşən Çovdar əlvan metal filizi yatağında qədim məzarlıq aşkar edilib. Belə ki, 2019-cu ilin fevral ayında "AzerGold" QSC tərəfindən 3-cü topaqələviləşdirmə sahəsinin tikintisi zamanı qədim məzarlığın aşkar edilməsi ilə əlaqədar ərazidə dərhal tikinti işləri dayandırılıb. Heydər Əliyev Fondunun dəstəyi və "AzerGold" QSC ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu arasında imzalanmış müqavilə çərçivəsində cari ilin may ayından etibarən ərazidə arxeoloji qazıntılara başlanılıb. Tədqiqatlar AMEA-nın "Daşkəsən" arxeoloji ekspedisiyası tərəfindən tarix üzrə fəlsəfə doktorları S.Aşurov və B.Cəlilovun rəhbərliyi ilə aparılır.

İlkin qiymətləndirməyə əsasən, ərazidə 35 daş qutu qəbirin aşkarlanması ehtimal olunsa da, aparılan tədqiqat işlərinin gedişatında nekropolun ərazisinin daha geniş olduğu müəyyən edilmiş və aşkarlanan qəbirlərin sayı artıq 120-yə çatmışdır. Daş qutudan ibarət quruluşa malik qəbirlərdə qədim dəfn adətinə uyğun olaraq məişət, bəzək əşyaları, silahlar, o cümlədən küpə, kasa, xeyrə, kəmərlər, bilərziklər, sırğalar, üzüklər, asmalar, xəncər və nizələr tapılıb. Aşkarlanan çoxsaylı müxtəlif ölçülü muncuqların içərisində əqiq, pasta, müxtəlif daşlardan, balıqqulağından hazırlanmış muncuqlara rast gəlinir. Muncuqların içərisində Misir istehsalı olduğu güman edilən mavi pastalara, Hind okeanı üçün xarakterik olan kaurilərə təsadüf edilir.

Alimlərin qənaətinə əsasən, sözügedən qazıntılar arxeoloji materialların zənginliyi ilə diqqəti cəlb edir və qədim insanların təsərrüfat həyatı, ideoloji baxışları, sosial və ictimai quruluşları haqda geniş məlumat almağa imkan verəcək ilk kompleks arxeoloji tədqiqatdır. İlkin analizə əsasən, Çovdar filiz emalı sahəsində aşkarlanan məzarlıq Son Tunc - Erkən Dəmir dövrünə (e.ə.II min. sonu - I min. əvvəli) aid edilir. Xatırladaq ki, bu qəbirlərin analogiyasına Respublikamızın Qərb bölgələrində, Qarabağda, Naxçıvan Muxtar Respublikası ərazisində rast gəlinir. Arxeoloji materiallar Son Tunc - Erkən Dəmir dövründə geniş yayılmış Xocalı-Gədəbəy mədəniyyətinə aiddir. Köçmə yaylaq maldarlığı ilə məşğul olan Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının qonşu ərazilərdə yaşayan tayfalarla, hətta uzaq Aralıq dənizi sahilləri və Hind okeanı ətrafı ilə iqtisadi-mədəni əlaqələri mövcud olub.

Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən müvafiq laborator analizlərin aparılması vasitəsilə aşkarlanan artefaktların tərkibinin müəyyən edilməsi nəzərdə tutulub ki, bununla da qədim insanların hansı ərazilərlə və ölkələrlə ticari əlaqələrə malik olduğu və bu kimi digər detallı məlumatlar əldə ediləcək. Bununla yanaşı, müvafiq razılaşmaya əsasən qəbirlərdən aşkarlanan sümük nümunələrinin izotop və radiokarbon analiz üçün xarici laboratoriyalara göndərilməsi nəzərdə tutulub. Bu tədqiqatlardan sonra qəbirlərin dəqiq tarixi, dəfn olunan insanların ölüm səbəbləri, qida rasionu, təsərrüfat həyatı, iqtisadi münasibətləri müəyyən ediləcək. Layihənin növbəti mərhələlərində daha dərin tədqiqatlar üçün xüsusi xarici ekspedisiyanın cəlb edilməsi də planlaşdırılır.

Tədqiqat işləri tam başa çatdıqda Heydər Əliyev Fondu ilə "AzerGold" QSC arasında əməkdaşlıq çərçivəsində xüsusi ekspozisiyanın yaradılması nəzərdə tutulub.

***"Azərbaycan"***

# İsveçrədə keçirilən Ümumdünya Qadın Sammitində Azərbaycanın dövlət qadın siyasətindən danışılıb

İsveçrənin Bazel şəhərində Ümumdünya Qadın Sammiti öz işinə başlayıb. Ümumdünya Qadın Sammitinin 19-cu iclası "Qadın: müvəffəqiyyətə yeni baxış" mövzusuna həsr edilib. Dünyanın bir çox ölkələrinin yüksəkvəzifəli dövlət nümayəndələrinin iştirakı ilə ayrı-ayrı təcrübələr təqdim olunur. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova həmin iclasın "Ən yaxşı təcrübələr" sessiyasında ölkəmizdə həyata keçirilən dövlət qadın siyasəti haqqında geniş məruzə ilə çıxış edib. Bu barədə AZƏRTAC-a Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən məlumat verilib.

Sammitin əhəmiyyətini vurğulayan komitə sədri Hicran Hüseynova bildirib ki, Azərbaycanda qadın hüquqlarının müdafiəsi daim xüsusi əhəmiyyət kəsb edib. Bu da təsadüfi deyil. Hələ 100 il əvvəl Azərbaycan qadını seçib-seçilmək hüququna nail olub. Bu, böyük tarixdir və biz çox sevinirik ki, belə böyük qadın hərəkatı tariximiz var. Bu gün də dövlətimiz qadınlar üçün bütün imkanları yaradır ki, onlar cəmiyyət həyatında fəal iştirak etsinlər. H.Hüseynova qeyd edib ki, mürəkkəb ictimai-siyasi və ağır hərbi vəziyyət fonunda ötən 28 ildə Azərbaycan müstəqil dövlət olaraq ciddi islahatlar aparıb və bu gün dünyanın inkişaf etmiş nüfuzlu dövlətlərindən birinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanmış sənədlər, qəbul edilmiş qərarlar sahibkarlığın inkişafına çox böyük dəstəkdir. Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın xüsusi təşəbbüsü ilə həyata keçirilən sosial layihələr də qadın sahibkarlığının, xüsusilə qaçqın və məcburi köçkün qadınlar arasında sahibkarlığın inkişafına müsbət təsir göstərir. Görülən işlər nəticəsində ölkə üzrə qadınlar arasında işsizliyin səviyyəsi son illər on dəfə azalaraq 5,9 faizə düşüb. Əvvəllər 4 faiz təşkil edən qadın sahibkarların sayı artaraq 2019-cu ilin əvvəlinə olan məlumata əsasən 30 faizi ötüb.

Komitə sədri bildirib ki, ölkəmiz bütün sahələr üzrə dinamik inkişaf edir. "Ancaq biz hələ də müharibə şəraitində yaşayan ölkəyik. Əlbəttə ki, bir milyondan çox qaçqın və məcburi köçkünün, xüsusilə də bu təbəqədən olan qadınların cəmiyyətə inteqrasiyası, onların sosial müdafiəsi, təhsil, tibb və digər xidmətlərin əlçatan olması ən vacib məsələlərdəndir. Hökumətin qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və hüquqlarının təmin edilməsi sahəsində atdığı addımlar nəticəsində onlar mənzillərlə təmin olunublar, uşaq və tələbələr təhsil haqqından azaddırlar, tibb xidmətləri göstərilən zaman onlara böyük güzəştlər edilir və s. Belə bir şərait qadınlara imkan yaradır ki, onlar öz üzərində işləsin, cəmiyyətdə fəal iştirak etsinlər. Azərbaycanın bu sahədə təcrübəsi oxşar problemlər yaşayan ölkələrə nümunədir", - deyə H.Hüseynova əlavə edib.

H.Hüseynova müsbət təcrübələrin öyrənilməsinin, ölkələrarası mübadilənin gücləndirilməsinin əhəmiyyətindən bəhs edərək deyib ki, bu gün sahibkar qadınlarımız digər ölkələrin sahibkar qadınları ilə çox sıx əməkdaşlıq edir, ikitərəfli memorandumlar imzalayırlar. Bu sırada Türkiyə, Belarus, Rusiya, Mərakeş, Həştərxan vilayətinin sahibkar qadınları ilə bağlanmış əməkdaşlıq sənədlərini misal göstərmək olar. Eyni zamanda 2012-ci ildən Azərbaycan BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramının (SPECA) Gender və İqtisadiyyat üzrə Tematik İşçi Qrupunun sədridir.

Komitə sədri qeyd edib ki, qadın və qızların sosial və iqtisadi həyatda iştirakına əngəl olan səbəbləri, o cümlədən əmək bazarında qadınların məşğulluq imkanlarını təhlil etməyə davam edirik. Qadınların fəal iştirakı üzrə özəl sektor üçün tövsiyələri özündə əks etdirən xüsusi hesabat hazırlanıb.

Azərbaycanda bir sıra sənədlərdə, o cümlədən Strateji Yol Xəritəsində və Dayanıqlı İnkişaf Məqsədlərində də insanların özünü göstərmələri üçün imkanların genişləndirilməsi nəzərdə tutulur. Qadınların peşə hazırlığı kurslarına cəlb olunması, onların bazar iqtisadiyyatı və sahibkarlıq fəaliyyəti haqqında bilik və təcrübə qazanmaları komitənin BMT İnkişaf Proqramı və digər beynəlxalq təşkilatlarla birgə keçirdiyi layihələrin mühüm əhəmiyyəti vardır. Bu əməkdaşlıq çərçivəsində bölgələrdə fəaliyyət göstərən səkkiz Qadın Resurs mərkəzi təkcə qadın sahibkarlığının inkişafına kömək etmir, eyni zamanda qadının cəmiyyətdə nüfuzunun artmasına təkan verir.

Komitə sədri deyib: "Bu gün vacib məsələlərdən biri də, kənd yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda daha fəal iştirak etməsidir. Ölkəmizdə əhalinin dörddəbirini təşkil edən kənd qadınlarının sosial və iqtisadi həyatda iştirakına xüsusi önəm verilir. Komitə ilə BMT-nin İnkişaf Proqramının "Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı" birgə texniki yardım layihəsi nəticəsində bu gün kənd qadınları çox fəaldırlar. Eyni zamanda 11 regionda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək mərkəzlərimizdə bu sahədə qadınlara xüsusi təlimlər keçirilir. Kənd yerlərində yaşayan qadınların yeni iş yerləri tapması üçün xüsusi iş və əmək yarmarkaları reallaşdırılır. Qeyd etmək istərdim ki, yeni yaradılmış Azərbaycan Kənd Qadınları Assosiasiyası qadınların regional və ölkə səviyyəsində şəbəkələşməsi prosesinə öz mühüm töhfəsini verir. Həmçinin Ailə Biznesinə Dəstək Mərkəzlərinin (ABAD) yaradılması yeni iş yerlərinin açılmasını asanlaşdırmaqla yanaşı, kənd qadınları arasında kiçik və orta sahibkarlığı artırır. Regionlarda yaşayan və kənd təsərrüfatı ilə məşğul olmaq istəyən qadınların, gənc xanımların və eləcə də məcburi köçkün ailələrindən olan gənclərin bu sahədə biznes ideyalarının reallaşmasına və sosial vəziyyətinin yaxşılaşdırılmasına dəstək vermək üçün "AMAL" (Aqrar Məşğulluğun Artırılması Layihəsi) və "AFAQ" (Aqrar Fəaliyyətli Azərbaycan Qadınları layihəsi) layihələri fəaliyyət göstərir. Respublikada Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası və Kəndli Qadınlar Assosiasiyası yaradılıb. Bu da qadın sahibkarlığı sahəsində şəbəkələrin qurulmasında mühüm rol oynayır".

İclas müzakirə və məruzələrlə davam edib.

Qeyd edək ki, Dünya Qadınlarının "Davosu" kimi tanınan və 1990-cı ildən etibarən təşkil olunan Ümumdünya Qadın Sammitinə 80-dən çox ölkədən 1200-ə qədər nümayəndə, o cümlədən qadın-nazirlər, birinci xanımlar, yüksək dövlət vəzifəsi tutan şəxslər, ictimai-siyasi xadimlər, millət vəkilləri, işgüzar qadınlar, qeyri-hökumət təşkilatlarının rəhbərləri qatılırlar. Sammit çərçivəsində qadınların ictimai-siyasi həyatda, dövlətin və cəmiyyətin idarə olunmasında, eləcə də iqtisadiyyatda və biznesdə rolunun artırılması mövzuları ətrafında müzakirələr aparılır, təkliflər irəli sürülür.

# Azərbaycan "OPEC plus"un qərarlarını dəstəkləyir

## Neft hasilatının azaldılmasına dair sazişin müddəti 9 ay uzadıldı

Əvvəli 1-ci səh.

Birləşmiş Ərəb Əmirliklərinin Enerji və Sənaye naziri Süheyl Məhəmməd əl-Məzrui isə ilin qalan dövründə bazarda balansın təmin edilməsi üçün sazişin müddətinin uzadılması istiqamətində razılığa gəlinəcəyinə ümidvar olduğunu demişdir.

Hamburq Kommersiya Bankının baş iqtisadi analitiki Sayrus de la Rubia da görüşlərin davam etdiyi zaman bildirmişdir ki, bütün gedişat hasilat həcminin qüvvədə saxlanacağına dəlalət edir: "Hazırda ABŞ və Çin arasında ticari münaqişə, ABŞ və İran arasında Fars körfəzindəki gərginlik və eləcə də Venesueladakı siyasi proseslər "OPEC plus" qərarının dünya neft bazarına nə qədər ciddi təsir edəcəyini də sual altına qoyur. Bununla belə, dünyadakı müsbət iqtisadi inkişaf əsas ümidverici faktor olaraq qalır.

Əgər konyunktura proqnozları müsbət olaraq qalsa, bu da öz növbəsində "OPEC plus" qərarının effektivliyinə öz təsirini göstərəcək".

Xatırladaq ki, ötən ilin dekabrında 14 dövləti öz ətrafında birləşdirən OPEC və bu təşkilata üzv olmayan 10 ölkə gündəlik hasilatın 1,2 milyon barrel azaldılması barədə razılıq əldə etmişdilər. Hazırda qlobal neft hasilatının yarısı "OPEC plus" ölkələrinin payına düşür və istehsal həcminin aşağı həddə saxlanması hasilatçı ölkələr üçün iqtisadi çətinliklər yaradır. Məhz bu səbəbdən də ötən iclasda istehsal həcminin azaldılmasına dair qərar İran və Venesuelaya şamil olunmamışdı.

Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, hasilatın həcminin azaldılmasına dair qərar "OPEC plus" ölkələri tərəfindən tam icra edilib. Bəzi ölkələr hətta istehsalı nəzərdə tutulandan da aşağı salıblar.

"OPEC plus" Nazirlərinin Birgə Monitorinq Komitəsinin 15-ci iclasında mövcud kvotalara dəyişiklik edilmədən neft hasilatının azaldılmasına dair "Əməkdaşlıq Bəyannaməsi"nin icra müddətinin daha 9 ay uzadılması təklif olundu.

Beləliklə, "OPEC plus" nazirlərinin 6-cı görüşündə OPEC-ə üzv və qeyri-OPEC ölkələri arasında uzunmüddətli əməkdaşlığa dair Xartiya qəbul olundu, eləcə də neft hasilatının azaldılmasına dair sazişin müddətinin daha 9 ay uzadılması ilə bağlı razılıq əldə edildi.

OPEC-ə üzv və qeyri-OPEC ölkələrin nazirlərinin növbəti görüşünün vaxtı da müəyyənləşdi. Tədbir bu il dekabrın 6-da Avstriyanın paytaxtı Vyanada təşkil olunacaq.

Sözügedən görüşlərdə Azərbaycanı Energetika naziri Pərviz Şahbazov təmsil edib. Nazir çıxış edərkən ötən ilin dekabrında qəbul edilmiş "Əməkdaşlıq Bəyannaməsi" üzrə öhdəliklərin artıqlaması ilə yerinə yetirilməsi nəticəsində neftin qiymətinin kəskin ucuzlaşmasının qarşısının alındığını deyib. Bildirib ki, həm istehsalçı, həm də istehlakçıların maraqlarına cavab verən qiymət həddi formalaşıb: "Lakin mayın sonundan başlayaraq yenidən neftin qiymətinin ucuzlaşma tendensiyasını müşahidə edirik. Bu il qlobal neft tələbatının ötən illə müqayisədə gündəlik 1 milyon 140 min barrel artması ilə bağlı proqnozlara baxmayaraq, bazarda həddindən çox neft tədarükü var. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində neft ehtiyatları artmaqda davam edir. Qlobal neft təklifinin növbəti illərdə də tələbatı üstələyəcəyi gözlənilir. Ona görə də tənzimləmə tədbirlərini davam etdirməklə neft hasilatının məhdudlaşdırılması ilə bağlı razılaşmanın müddətinin uzadılmasına ehtiyac var".

Nazir çıxışında may və iyun aylarında Azərbaycanın gündəlik neft hasilatını 20 min barrel azaltmaqla bağlı öhdəliyini tam yerinə yetirdiyini, razılaşmanın müddətinin uzadılması təklifinə ölkəmizin dəstək verdiyini diqqətə çatdırıb.

Ekspertlər OPEC və kartelə üzv olmayan ölkələrin bu addımı ilə dünya bazarında neftin qiymətinə sabitləşdirici təsir göstəriləcəyi qənaətindədirlər.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Bu il sahələrdə bol taxıl var

Əvvəli 1-ci səh.



Rayon üzrə 15 min 547 hektarda taxıl səpilmişdir. Onun 14 min 112 hektarı buğda, 1435 hektarı arpadır. Aqrotexniki tədbirlərin sayəsində zəmilərdə bol məhsul yetişdirilmişdir. Hazırda sahələrdə 15-dən artıq kombayn işləyir. Məhsuldarlıq yüksəkdir. Orta hesabla arpa sahələrinin hər hektarından 26,3, buğda sahələrinin hər hektarından 30,5 sentner məhsul götürülür.

Rayonda taxılçılığa maraq ildən-ilə artır. Xüsusilə heyvandarlıqla məşğul olan fermerlər hər il əkin sahələrini artırırlar. Məsələn, Bozalqanlı kəndi ərazisində 4 hektarda taxıl əkən Kamal Ələsgərov hər il zəmilərdən bol məhsul götürür. Dönük Qırıqlı kəndinin sakini Fərhad Məmmədov isə 10 hektarda taxıl əkib. Yaratdığı heyvandarlıq kompleksində 100 başadək cins qoyun saxlayır. Onların arpaya olan tələbatını əkin sahələrindən yığdığı taxılla ödəyir.

Taxıl əkən fermerlərdən biri də Aşağı Müsüzlü kəndinin sakini Elxan Nağıyevdir. Keçən il 12 hektarda taxıl yetişdirən fermer bu il əkin sahəsini genişləndirərək 15 hektara çatdırmışdır. Bu günlər Elxan Nağıyevin də taxıl sahələrində biçinə başlanılmışdır. İlk göstəricilər ürəkaçandır. Biçinin ilk günlərindən orta hesabla hər hektardan 32 sentner məhsul götürülür.

Aşağı Öysüzlü kəndinin sakini Zahid Səmədov isə bu il 50 hektar sahənin taxılını biçməlidir. Biçinə mütəşəkkilliklə başlayan fermer bu işdə heç bir çətinliyin olmadığını bildirərək dedi ki, dövlətin taxılçılığın inkişafına göstərdiyi qayğıdan bəhrələnərək hər il əkin sahələrində bol məhsul yetişdirir. Keçən il yığdığı məhsulun bir hissəsini toxum kimi satmış, bir hissəsini növbəti ilin səpininə saxlamış, bir hissəsini heyvandarlığın inkişafına sərf etmişdir.

Zahid Səmədov taxılçılara verilən dəstəkdən razıdır: "Hər hektara və işlənmiş sürtkü yağlarına görə dövlət bizə subsidiya ödəyir. Əkin sahələrinə verdiyimiz gübrələri isə güzəştli qiymətlərlə alırıq. Göstərilən bu qayğının nəticəsidir ki, uğurlarımız ildən-ilə artır".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bakıda ilk Respublika Sənətkarlıq Festivalı təşkil olunub



Əvvəli 1-ci səh.

Mədəniyyət naziri Əbülfəs Qarayev bildirib ki, bu festivalın keçirilməsi UNESKO-nun 43-cü sessiyasına təsadüf edir. Bu sessiyada 150 ölkəni təmsil edən 3 minə qədər qonaq iştirak edir.

İyulun 7-dək davam edəcək festival günlərində həm Bakı sakinləri, həm də şəhərimizin qonaqları burada təşkil edilən yarmarka ilə tanış ola, eyni zamanda əl işlərini əldə edə biləcəklər. İnanıram ki, bu, sahibkarlar üçün də gözəl bir şansdır.

Tədbirin keçirilməsinə dəstək olan şirkətlərə təşəkkürünü bildirən nazir bura gələn insanların mədəni istirahətlərini qurmasında bu festivalın başlıca məqsəd olduğunu bildirib. Nazir onu da qeyd edib ki, bütün bu tədbirlərin keçirilməsi silsilə xarakter daşıyır. Azərbaycanda turizmin inkişafı yüksək səviyyədə təmin olunur. Ölkə başçısının siyasəti Azərbaycanı qabaqcıl ölkəyə çevirməkdir. Buna görə də Azərbaycanın qapıları dünyanın üzünə açıqdır. "Hesab edirəm ki, bu mədəni marşrut öz-özlüyündə vacibdir. Buna görə də bizim sahibkarlarımız bu marşrutun genişlənməsinə öz töhfəsini verəcəklər" deyə nazir əlavə edib.

Yarmarkanın iştirakçılarından olan Rauf Seyidzadə tədbirə Bakı şəhərindən qatılıb. Təşkilatçılara minnətdarlığını bildirən sənətkar deyib: "Bizə əl işlərimizin nümayiş olunmasında dəstək olurlar. Arzu edərdim ki, mütəmadi olaraq belə sərgilər keçirilsin və biz də hazırladığımız əl işlərini burda həm nümayiş etdirək, həm də sataq".

Tədbirə Bakı və Sumqayıt şəhəri, habelə Abşeron yarımadasının digər yerlərində fəaliyyət göstərən təxminən 60 sənətkar, bölgələrdən 40-a yaxın sənətkar dəvət edilib. Tədbirin keçiriləcəyi ərazidə məlumat mərkəzləri yaradılıb. Festival ərəfəsində əl işlərinin marketinqi sahəsində müasir, innovativ üsulların istifadəsi, həmçinin milli dəyərlərin yaşadılması istiqamətində mütəxəssislərin və sənətkarların iştirakı ilə konfrans keçiriləcək.







Festivalda gənc nəslə, ziyarətçilərə əl işləri sənətinin texnologiyasının öyrədilməsi, nümayiş etdirilməsi məqsədilə ustad dərsləri təşkil ediləcək. Yeni əl işləri sənətinin nümunələrinin təqdim olunması və onlara dəstək göstərilməsi üçün "wall art" və "street art" üçün şərait yaradılıb.

Festivalın cəlbediciliyinin artırılması üçün "şəhərcik" plan-quruluşundan istifadə edilib. Belə ki, uyğun və ya yaxın sənətkarlıq istiqamətləri eyni stenddə yerləşdirilib və bu stendlər simvolik olaraq sənətkarlıq kəndini, qəsəbə və məhəlləni formalaşdırır. Beləliklə, festivalı ziyarət edən şəxslər "xalçaçılar kəndi", "dulusçular məhəlləsi", "misgərlər qəsəbəsi" və s. ilə tanış olurlar. Festival barədə kitabçalar və kataloqlar nəşr olunub.

Mədəniyyət Nazirliyinin tabeliyində olan təşkilatların, habelə yaradıcı birliklərin iştirakı ilə festival müddətində hər gün konsert proqramı təqdim ediləcək. Festivalda uğurla iştirak edən, əl işlərinin keyfiyyəti və aktuallığı ilə seçilən sənətkarların xarici ölkələrdə keçirilən beynəlxalq sərgi-yarmarkalarda, habelə digər tədbirlərdə iştirakına kömək göstəriləcək.

AZƏRTAC festivala informasiya dəstəyi verir.

# IDEA-nın "Bizim həyət" layihəsi çərçivəsində növbəti həyət abadlaşdırılıb





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində iyulun 4-də növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

Yenilənmiş həyət Nəsimi rayonundakı Hüseyn Seyidzadə küçəsi 20, 22, 24, 26, 28 ünvanında 1200 nəfər sakinin yaşadığı binaları əhatə edir. Bu, sakinlərin istifadəsinə verilmiş layihə çərçivəsində abadlaşdırılan sayca iyirmi altıncı həyətdir.



"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması və sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Layihə çərçivəsində abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə ərazidə mini-futbol meydançası, 2 şahmat meydançası, 3 söhbətgah, müxtəlif yaş qrupları üçün nəzərdə tutulmuş idman qurğuları, uşaqlar üçün oyun meydançası və oturacaqlar quraşdırılıb, ümumilikdə, 3 həyəti birləşdirən bir park yaradılıb.

İdman qurğuları və meydançalarının salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürməsi, asudə vaxtlarını səmərəli keçirməsi, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır. Sakinlərin istək və maraqları nəzərə alınaraq yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac əkilib və 5 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

"Bizim həyət" layihəsinin paytaxtın bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətlər haqqında məlumat və tövsiyələri IDEA İctimai Birliyinə təqdim etmək lazımdır.

# Obrazların mimika və jestlərlə açılışı

## Azərbaycan Pantomima Teatrı 25 ildir tamaşaçılarını sözün yox, baxışların hikmətinə heyran qoyur

Teatrın tarixi, əlbəttə, peşəkar səhnə əsərlərinin yaranması ilə ölçülə bilməz. Xalq teatrları, onlardan da öncə yaranmış məzhəkə və meydan tamaşaları teatrın rüşeymləri və qığılcımları kimi onun ilkinliyini qoruyub saxlamaqda bu gün də davam edir. Bunu təbii ki, folklor nümunələrində də görmək çətin deyil. Əsrlərdir ki, həyat hadisələrinin bədii ifadəsi olduğunu təsdiqləyən səhnə sənətinin yaşı Azərbaycanda 1873-cü ildən hesablanır.

Lakin zaman keçdikcə dram teatrında da yeni forma və janrlar yaradıldı. Yeni aktyor nəsilləri yetişdikcə teatra münasibət, ondan irəli gələn tələblər də dəyişildi. Beləliklə də, dramdan savayı opera, muğam və pantomima kimi teatr janrları yaradıldı. Bax, elə 25 il öncə mimika və jestlərlə səhnəyə çıxan bir qrup aktyor tamaşaçı rəğbətini qazandı, baxmayaraq ki, bəziləri teatrdakı bu yeniliyi həzm edə bilmirdi.

Azərbaycan milli teatr tarixində özünəməxsus yeri olan Dövlət Pantomima Teatrının yaranma tarixi belə başlayıb. Teatrın yaradılmasının və fəaliyyətinin 25 illiyi ilə



əlaqədar Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında keçirilən yubiley gecəsində sənət ocağının yaradıcılıq yoluna geniş nəzər salındı. Teatrın foyesində pantomimçilərin 25 illik fəaliyyətinə həsr olunmuş sərgi də tamaşaçılarda böyük təəssürat yaratdı.

Azərbaycan Teatr Xadimləri İttifaqı sədrinin müavini, Xalq artisti Hacı İsmayılov teatrın yaranma tarixinə qısaca nəzər salaraq qeyd etdi ki, 1994-cü ildə Xalq artisti Bəxtiyar Xanızadənin rəhbərliyi ilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının nəzdində "Dəli yığıncağı" pantomima teatr studiyası yaradılıb. 2000-ci ildə studiyaya dövlət teatrı statusu verilib.

Türkiyə, Bolqarıstan, İran, Almaniya, Gürcüstan, Rusiya, Fransa, Hollandiya, Avstriya və digər ölkələrdə qastrolda olan teatr təqdim etdiyi maraqlı səhnə əsərləri ilə teatrsevərlərin diqqətini cəlb edib. Bu gün repertuarında 50-dən artıq tamaşa var. Xalq artisti Pərviz Məmmədrzayev, əməkdar artistlər Bəhruz Əhmədli, Səbinə Hacıyeva, Elman Rəfiyev, Nargilə Qəribova, aktyorlar Nurlan Rüstəmov, Səbirə Həsənova, Solmaz Bədəlova, Leyla Atayeva və başqaları hazırda Azərbaycan Pantomima Teatrının istedadlı sənətçilərindəndir.

Azərbaycan milli teatrının bünövrəsi meydan tamaşalarından qoyulduğundan, onun bundan sonra da uzunömürlü olmasına şübhə yoxdur. Çünki bu sənəti yaşadanlar yalnız səhnə fədailəri deyil, xalqın özüdür. Xalq isə özünün tarixi keçmişini yaşatmaqda mühüm vasitə rolu oynayan mədəniyyət və incəsənətin inkişafı yolunda daim mübarizələrdən keçib.

Azərbaycan teatr tarixinə adları qızıl hərflərlə yazılan korifey sənətkarlarımızın fəaliyyətinə nəzər salsaq, bir daha yəqinləşdirərik ki, milyonlarla insanın həyat və təfəkkür tərzi - onların ictimai münasibətləri, baxışları, adətləri, inamları, idealları, arzu və istəkləri sənətkarların yaradıcılığında təcəssüm etdirilib.

Pantomima Teatrına gəlincə, bu mənada yaradıcı kollektivin üzərinə daha çox və işinin öhdəsindən bacarıqla gəlmək məsuliyyəti düşür. Axı onların təqdim etdikləri əsərlərdə dramaturqla rejissorun aktyora verdiyi imkanlardan daha çox obrazı yaradanın jest və mimikaları diqqət çəkir. Buna görə də janrın tələbkar tamaşaçılarının zövqünü oxşamaq bir qədər çətindir. Uğurlar olsun sözsüz səhnənin səssiz aktyorlarına ki, hərəkətləri ilə bizə çox mətləbləri eyhamla anladırlar...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC tərəfindən yanğınsöndürmə balonlarının doldurulması və məlumat lövhələrinin hazırlanması xidmətlərinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 18.06.2019-cu il tarixli qərarına əsasən, "Turan Yanğın Təhlükəsizlik Sistemləri" MMC kotirovka sorğusunun qalibi seçilmişdir.

Qalib şirkətlə 04.07.2019-cu il tarixli müqavilə bağlanmışdır.

*Tender komissiyası*

# "Azərişıq" ASC ölkənin bütün regionlarında apardığı tikinti-bərpa işlərini cənub regionunda da davam etdirir

Cənub Regional Enerji Təchizatı və Satış İdarəsinin (RETSİ) xidməti ərazisindəki istismar müddətini başa vurmuş yarımstansiyalardan tutmuş elektrik hava xətlərinə qədər bütün istiqamətlərdə şəbəkələr hissə-hissə yenidən qurulur.

İstehlakçıların keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi, texniki itkilərin səviyyəsinin minimuma endirilməsi üçün davamlı şəkildə geniş miqyaslı işlər aparılır.

Masallı rayonunun ərazisində 35/10 kV-luq "Alvadı" yarımstansiyası tam yenidən qurularaq istismara verilib. Alvadı kəndində 35 kv-luq yüksək gərginlikli, 10 kV-luq orta gərginlikli hava xətləri yenilənlb. Təzə Alvadı,Ləngan, Təklə, Xoşçobanlı, Mollahəsənli, Sığıncaq kəndlərinin 0,4 kV hava xətləri özünüdaşıyan izolyasiyalı naqillərlə (ÖİN) əvəzlənib, ərazilərə yeni komplekt transformator məntəqələri (KTM) qurlaşdırılıb. 35/10 kV-luq "Qarğalıq" yarımstansiyasından qidalanan 10 kV-luq Həsənli və Xırmandalı kənd hava xətləri yenidən qurulub, Boradigah qəsəbəsində 0,4 kV-luq hava xətti ÖİN kabellərlə əvəzlənib.

Lənkəran Elektrik Şəbəkəsində yeni inşa olunmuş 35 kV-luq "Səpnəkəran" yarımstansiyadan çıxan və Yuxarı Nüvədi, Mis kəndləri istiqamətində gedən 4 ədəd 10 kV-luq hava xətləri tam yenilənib, rayonun Yuxarı Nüvədi, Səpnəkəran, Şürük, Tütəbeştə, Moğonojba, Türkəkəran, Şıxəkəran, Xolmili, Seydəkəran, Kənarmeşə, Viyən, Aşağı Nüvədi kənd və qəsəbələrin 0,4 kV-luq hava xətləri ÖİN kabellərlə əvəzlənib, kəndlərdə yeni KTM-lər qurlaşdırılıb.

Astara rayonunun Şahağacı, Sekaşen kəndlərində elektrik xətlərinin böyük hissəsi tam yenidən qurulub, yeni sayğacların quraşdırılması və əvəzlənməsi işləri aparılıb. Lerik rayonunun Andurma və Şingədulan kəndlərinin də 0,4 kV-luq hava xətləri ÖİN kabellərlə çəkilərək yenidən qurulub və hazırda bu istiqamətdə işlər rayonun Orand kəndində aparılır. Cəlilabad rayonunun Köçəkli və digər kəndlərində 0,4 kV-luq şəbəkə ÖİN kabellərlə əvəzlənir. Yardımlı rayonunun mərkəzində də hazırda yeni KTM-lər quraşdırılır, 0,4 kV-luq şəbəkə ÖİN kabellərlə əvəz edilir.

Biləsuvar rayonunun elektrik təchizatının yaxşılaşdırılması, elektrik enerjisinə artan tələbatın ödənilməsi üçün 110/35/10-6 kV-luq 2x25+10 MVA gücündə "Səmədabad" yarımstansiyası tam yenidən qurulmuşdur. Biləsuvar şəhərinin və rayonun Köhnə Əmənkənd, Əliabad, Xırmandalı kəndlərində 0,4 kV-luq şəbəkələrin yenidən qurulması üçün dayaqlar quraşdırılır.

*"Azərbaycan"*

*Təkrar*

## Azərbaycan Respublikası Mərkəzi Bankı balansında olan əsas vəsaitlərin, nağd pulun və nəqliyyat vasitələrinin sığortasından ibarət olan birləşdirilmiş sığorta xidmətləri toplusu üzrə

## *tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq əsas vəsaitlərin, nağd pulun və nəqliyyat vasitələrinin sığortasından ibarət olan birləşdirilmiş sığorta xidmətləri üzrə açıq tender keçirir.

Tender proseduru 05 avqust 2019-cu il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

İddiaçı qismində Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada sığorta fəaliyyətinə lisenziyası olan, yuxarıda göstərilən müvafiq sığorta növlərinin aparılması üzrə rəsmi razılıq almış, müvafiq icbari sığorta növləri üzrə İcbari Sığorta Bürosunun İştirakçısı Sığortaçılarının Reyestrinə daxil edilmiş sığorta şirkəti çıxış edə bilər.

İddiaçının kapitalı Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 24 yanvar 2014-cü il tarixli Q-5 nömrəli qərarına uyğun olaraq sığortaçılar üçün tələb olunan 5000 000 (beş milyon) manatdan az olmamalıdır.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri;*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş xüsusi razılığın (lisenziyanın) və əmlakın, o cümlədən nağd pulun yanğından və digər risklərdən sığortalanmasına, habelə avtonəqliyyat vasitələrinin (CASCO) könüllü və avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasına dair verilmiş razılığın surəti;*
- *təkrarsığorta xarici təkrarsığorta şirkəti tərəfindən həyata keçirildikdə xarici təkrarsığorta şirkətinin Maliyyə Bazarlarına Nəzarət Palatasının müvafiq reyestrinə daxil edilməsi barədə məlumat (təkrarsığorta xarici sığorta brokeri vasitəsilə həyata keçirildikdə də təqdim edilməlidir);*
- *əsas şərtlər toplusunda müəyyən edilmiş reytinqə malik olan təkrarsığortaçılar tərəfindən riskin qəbul edilməsini təsdiq edən məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 18 sentyabr 2019-cu il tarixinədək qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi üzrə vaxtı keçmiş öhdəliklərinin olmaması barədə dövlət orqanından arayış;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 02 avqust 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 24 iyul 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderdən kənarlaşdırılacaqdır.

İddiaçılar tenderdə iştirak haqqı kimi Mərkəzi Bankın aşağıdakı hesabına 300 (üç yüz) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**SWIFT BIK: NABZAZ2C**
Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamenti.

Sığorta xidmətinin göstərilməsinə 01 noyabr 2019-cu il tarixindən başlanılır. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə xidmət göstərilməsinə 25 yanvar 2020-ci il tarixindən başlanılır.

Sığorta xidmətinin göstərilməsi müddəti: 12 (on iki) ay.

Qiymətləndirmə meyarları: qiymət, təklif olunan xidmətlər toplusu üzrə sığorta şərtləri və franşiza (azadolma) məbləğləri.

Tenderdə iştirak etmək istəyən sığorta şirkətləri iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər. Tender üzrə əlaqələndirici şəxslər:

**Elvin Şirdanov (Hüquq departamenti), telefon: 493-11-22 (dax. tel.: 428), elektron poçt ünvanı: elvin_shirdanov@cbar.az**

**Ceyhun Səməndov (İnzibati departament), telefon: 493-11-22 (dax. tel.: 599), elektron poçt ünvanı: ceyhun_samandov@cbar.az.**

*Tender komissiyası*

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Mətbəə və çap məhsullarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596 - 32 - 73 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 12 iyul 2019-cu il saat 17:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Salatın Əsgərova, 85**

*Tender komissiyası*

## "Azərenerji" ASC 110/35/6 kV-luq Sumqayıt-3 YS-dan Yağ, Plastik və Karton zavodlarına 35 kV-luq kabel xəttinin çəkilməsi işlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini **dövlət satınalmalarının vahid internet portalı vasitəsilə** təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 500 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra https://etender.gov.az/ **dövlət satınalmalarının vahid internet portalı vasitəsilə** iştirakçı kimi qeydiyyatdan keçə bilərlər. Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56.

İddiaçı şirkətlərin asan/elektron imzaları olması zəruridir. Yalnız asan imzası, yaxud elektron imzası olan İddiaçı **dövlət satınalmalarının vahid internet portalında qeydiyyatdan keçə bilər.**

| | |
|---|---|
| **Hesab:** | **AZ35AIIB33020019441024659102** |
| **VÖEN:** | **9900000421** |
| **Bank:** | **"Kapital Bank" ASC Mərkəz Filialı** |
| **Kodu:** | **200026** |
| **VÖEN:** | **9900003611** |
| **M/H:** | **AZ37NABZ01350100000000001944** |
| **SWIFT:** | **AIIBAZ2X** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq lisenziyalar və icazələr.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 30 iyul 2019-cu il saat 10:00-a qədər, bank zəmanəti və tender təklifini isə 08 avqust 2019-cu il saat 10:00-a qədər **dövlət satınalmalarının vahid internet portalı vasitəsilə** təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri 09 avqust 2019-cu il saat 10:00-da **dövlət satınalmalarının vahid internet portalı vasitəsilə** açılacaqdır.

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Vergilər Nazirliyi "Azərbaycan" qəzetinin 11.04.2019-cu il tarixli 77 (8100) və 25.04.2019-cu il tarixli 89 (8112) sayında dərc edilmiş elanlarla əlaqədar bildirir ki, keçirilmiş açıq tenderin nəticələri üzrə 3 iyul 2019-cu il tarixdə "Maxmedia" MMC (VÖEN: 1700438721) ilə qrafik, video və qrafik video çarxların, video təlimatların və reportajların hazırlanması, reklamların internetdə (sosial şəbəkələrdə) yerləşdirilməsi, dizayn, dizayna düzəlişlərin edilməsi və fərdiləşdirmə işlərinin satın alınmasına dair 534 983,68 manat məbləğində, "Azərbaycan" qəzetinin 20.04.2019-cu il tarixli 85 (8108) və 03.05.2019-cu il tarixli 96 (8119) sayında dərc edilmiş elanlar üzrə keçirilmiş açıq tenderin nəticələri üzrə 3 iyul 2019-cu il tarixdə "İnnova" İnnovativ Reklamçılıq Şirkəti" MMC (VÖEN: 1702314011) ilə açıq məkanda reklam yerləşdirilməsinin satın alınmasına dair 328 600,50 manat məbləğində satınalma müqavilələri bağlanmışdır.

*Tender komissiyası*

# Baramanın startapları üçün imkanlar genişləndi

2009-cu ildə "Azercell Telekom" MMC tərəfindən yaradılan Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi ölkədə sahibkarlıq mühitinin və startap sisteminin inkişafına öz dəstəyini verib. Əsasən informasiya texnologiyaları sahəsinə aid olan layihələrin və startapların formalaşaraq müstəqil şirkətə çevrilməsində yardımçı olan mərkəz, "Azercell Telekom" MMC-nin brendi olaraq qalmaqla bundan sonra öz fəaliyyətini Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində olan İnnovasiyalar Agentliyində davam etdirəcək.

İnnovasiyalar Agentliyi Mərkəzin gələcək fəaliyyət və inkişaf perspektivlərinə dəstək verməklə onun idarəetməsini həyata keçirəcək. Bunun nəticəsində təşkilati proseslərin səmərəliliyinin artırılması yolu ilə ölkədə sözügedən sistemin inkişafı üçün əlverişli şəraitin yaradılması və daha geniş imkanların təqdim edilməsi mümkün olacaq. Qeyd edək ki, hazırda Barama 15 startapa dəstək göstərməkdədir.

*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

# David Sassoli Avropa Parlamentinin sədri seçildi

İtaliyalı deputat, 63 yaşlı David Sassoli Avropa Parlamentinin (PA) yeni sədri seçilmişdir. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Sassoli 2,5 il müddətində bu vəzifəni tutacaq. O, 10 il solçu mərkəzçi partiyalar blokundan Avropa Parlamentinin deputatı olmuşdur. İclasda onun lehinə 345 parlamentar səs vermişdir.

Spiker vəzifəsinə Ska Keller (Almaniya), Sira Reqo (İspaniya), David-Mariya Sassoli (İtaliya) və Yan Zahradil (Çexiya) namizəd idilər.

Birinci turda da ən çox səsi (325) Sassoli qazanmışdır. Lakin bu, spikerlik üçün kifayət etməmişdi. Belə ki, AP-nın sədri seçilmək üçün səslərin 50 faizdən çoxunu qazanmaq lazım idi. İkinci turda isə o, lazımi qədər səs qazana bilmişdir.

# İran ABŞ-la danışıqlar üçün şərt irəli sürdü



İranın informasiya naziri Mahmud Ələvi bildirmişdir ki, ABŞ-la danışıqların başlaması üçün əsas şərt sanksiyaların götürülməsidir. Bundan əlavə, Vaşinqtonla dialoq aparmaq üçün ali lider Əli Xameneinin rəsmi icazəsi lazımdır. Bu barədə İRNA agentliyi xəbər verir.

"Əgər ABŞ İranla bağlı sanksiyaları götürsə, biz onlarla danışıqlar məsələsinə baxa bilərik", - deyə Ələvi bildirmişdir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan etmişdir ki, Türkiyə və Yaponiya ABŞ-la İran arasında münaqişənin həlli üçün vasitəçiliyə hazırdırlar. Türkiyə lideri bunu Osakada G20 liderlərinin sammitində Yaponiyanın Baş Naziri Sindzo Abe ilə danışıqlar zamanı bildirmişdir. Eyni zamanda Ərdoğan növbəti dəfə İrana qarşı tətbiq olunan sanksiyaları pisləmişdir.

# Meksikanın federal polisi tətilə başladı



Meksikanın federal polisin tətili elan edilmişdir. Bu barədə TASS agentliyi xəbər verir.

Məlumata görə, bu struktur ölkənin hüquq mühafizə orqanlarının ən döyüşkən və ən az korrupsiyaya uğramış qurumudur.

Etiraza səbəb hökumətin polisləri Prezidentin təşəbbüsü ilə yaradılmış Milli Qvardiyanın tərkibinə köçürmək planları olmuşdur. Tətil təşkilatçıları bildiriblər ki, birləşmə nəticəsində federal polisin əməkdaşları daha az əməkhaqqı alacaqlar və hüquqları azalacaq.

Srağagün polislər ölkənin paytaxtında mitinq keçirmiş və 10 saat ərzində Mexiko-Paçuka federal trasda hərəkəti dayandırmışlar. Hökumət etirazçılarla danışıqlar aparmağa cəhd etmiş, lakin hələ ki, heç bir nəticə əldə olunmamışdır.

Milli Qvardiyanın tabe olduğu Təhlükəsizlik və Mülki Müdafiə Nazirliyi vəd etmişdir ki, polislər qvardiyaya köçürülərkən nə maaşlarında, nə də hüquqlarında fərq olmayacaq.

Meksika qanunvericiliyinə görə, hərbçilər və polis tətil etmək hüququna malik deyillər.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova qayınatası

**KAMİL MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rəhbərliyi Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə əzizi

**ŞÜKUFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə əzizi

**ŞÜKUFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ombudsman Elmira Süleymanova Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova qayınatası

**KAMİL MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyindən Cavanşir Yusifov Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyevə anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadəyə əzizi

**ŞÜKUFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sahir Məmmədxanov Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyevə anası

**ZİNYƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun rəhbərliyi və əməkdaşları Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova və ailəsinə əzizləri

**KAMİL SURXAY OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İradə Gülməmmədova və Abşeron Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova qayınatası

**KAMİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İradə Gülməmmədova və Abşeron Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova atası

**AZAY QARAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8496
Sifariş 2162
Qiyməti 40 qəpik